RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 87 (10107) 19 may 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# DÜNYA BAKIDA TOPLAŞIB

## Prezident İlham Əliyev Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində çıxış edib




Mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax sessiyada iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.

Sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən hazırlanmış, WUF13-ün açılışına həsr olunmuş videoçarx nümayiş etdirildi və mədəni proqram təqdim olundu.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

2-8

**182 ölkədən 45 mindən artıq iştirakçı**




ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



**WUF13**



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB























ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB

## Prezident İlham Əliyev Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində çıxış edib




### Prezident İlham Əliyevin çıxışı

- Zati-aliləri, xanımlar və cənablar, əziz qonaqlar!

Əvvəlcə mən Ümumdünya Şəhərsalma Forumunun bütün iştirakçılarını Bakıda salamlamaq və foruma uğurlar arzulamaq istərdim. Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Düşünürəm ki, Bakıda bu günlər ərzində, ilk dəfə ölkəmizə səfər edən qonaqların əksər hissəsi ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar.

Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, həmçinin ölkəmizin memarlığında əks olunub. Beləliklə, əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz - vaxtilə üç kilometr olmuş Bakı Bulvarı hazırda 15 kilometrdən artıq tanınmış dənizkənarı məkandır.

Daha sonra isə Avropa memarları tərəfindən layihələndirilmiş və tikilmiş XIX əsrə aid binalar var. Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən, əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir.

Bu il mənim sərəncamıma əsasən, "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və forumun 13-cü Sessiyasına evsahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.

Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Mən onlardan bəzilərini qeyd edəcəyəm. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə



bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin, dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib.

Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda qorunaraq bu günədək saxlanılıb. Qeyd etdiyim bütün bu abidələri hər kəs ziyarət edərək görə bilər, onların içərisinə daxil olaraq onlara toxuna bilər. Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik. Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək.

Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq. Mən bunu bəzən Bakıdakı "Formula-1" yarışı ilə müqayisə edirəm. Yeri gəlmişkən, Bakı Qran-prisi şəhər halqasında keçirilən çox azsaylı yarışlardandır. Ən sürətli əsas yolda sürət saatda 300 kilometrdən çox olur, sonra isə pilotlar əyləcə basaraq bolidlərini eni yeddi metr olan küçəyə sığışdırmalıdırlar və bunu da qədim qala divarlarından bir metr məsafədə etməlidirlər. Beləliklə, pilotlar liderlər, qərar qəbul edənlər və inkişaf gündəliyini irəli aparanlar kimi cəsur və ehtiyatlı olmalıdırlar. Biz inkişafda, insanlarımız üçün daha yaxşı şəraitin yaradılmasında, müasirləşmədə cəsur olmalıyıq. Lakin eyni zamanda tarixi irsimizin qorunmasına gəldikdə, çox ehtiyatlı olmalıyıq.

İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır.

Beləliklə, hazırda "Böyük qayıdış" proqramı həyata keçirilir, şəhər və kəndlərin baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub.

Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir.

Bununla belə, onlar üçün mənzillər və fərdi evlər, məktəb və xəstəxanalar tikmək üçün, əlbəttə, biz minalardan təmizlənməni aparmalı idik, lakin eyni zamanda biz məşğulluq haqqında düşünməliyik. Həmin sahələrdə artıq salınmış və salınacaq çoxsaylı sənaye zonaları öz torpağında yaşamaq kimi fundamental hüququndan məhrum olmuş yüz minlərlə insanın sürətli qayıdışına birmənalı dəstək olacaq.

Bakı haqqında danışsaq, bir neçə əlavə məsələni də qeyd edim. Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində, demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm.

Onlardan bəzilərinin burada zalda əyləşdiyini görürəm və bu müasir şəhərsalmanın digər misalını gedib görmək olar. Son 20 il ərzində biz Bakıda 100 park və ictimai yer, bağlar yaratmışıq. Onların 19-u tam yenilənib. İctimai nəqliyyata, mikromobilliyə, metro və elektrik enerjisi ilə işləyən müasir avtobuslara sürətli çıxışı olan və ətraf mühitə uyğun şəhərlər paytaxt və nəinki paytaxt üçün, bütöv konsepsiyanın tərkib hissələri kimi icra olunur.

Söylədiyim kimi, Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir. Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq. Şəhərsalma prosesində çox səhvlər olub və düşünürəm ki, həmin dövr artıq keçmişdə qaldı. Mən vaxtınızı çox almaq istəmirəm.

Mən həmçinin Bakının bələdçisi kimi danışa bilərəm, lakin düşünürəm ki, sizin üçün onları öz gözünüzlə görsəniz daha yaxşı olar. Mən Bakıda bütün qonaqlara xoş səfər arzu edirəm, Ümumdünya Şəhərsalma Forumuna uğurlar diləyirəm. Sağ olun.

*Ardı 4-cü səh.*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB




*Əvvəli 3-cü səh.*

❖ ❖ ❖

Sonra BMT-nin Baş katibi **Antonio Quterreş**in və BMT Baş Assambleyasının prezidenti **Annalena Berbok**un açılış mərasiminə ünvanladıqları videomüraciətləri nümayiş etdirildi.

BMT-nin Baş katibi müraciətində Ümumdünya Şəhərsalma Forumunun məqsədləri reallığa çevirmək üçün bir təkan olacağını vurğuladı.

BMT Baş Assambleyasının prezidenti Annalena Berbok isə dedi: "Bu tədbir həmçinin mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək üçün də imkan yaradır".





❖ ❖ ❖

Daha sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti **Nqa Kor Minq** çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, hörmətli dövlət və hökumət başçıları, hörmətli xanım icraçı direktor, hörmətli nazirlər, merlər və hörmətli nümayəndələr, xanımlar və cənablar.

Mən böyük şərəf hissilə tarixi Bakı şəhərində sizin qarşınızda dayanmışam. Burada - qədim İpək Yolunun üzərində və Xəzər dənizinin sahilində yerləşən şəhərdə sizin qarşınızda çıxış edirəm. Mən ən səmimi salamlarımı Azərbaycan hökumətinə və Azərbaycan xalqına çatdırıram. Bizə göstərilmiş səmimi qonaqpərvərliyə və bu tədbirin keçirilməsinə görə təşəkkürümü bildirirəm.

Mən həmçinin burada BMT-nin Baş katibi cənab Antonio Quterreş və BMT Baş Assambleyasının prezidenti xanım Annalena Berbokun bizə verdikləri mesajı alqışlayıram. Nəzərə almalıyıq ki, qlobal şəhərsalma gündəliyi heç zaman çoxtərəfli əməkdaşlıq üçün bu qədər mühüm bir əsas kimi götürülməmişdir.

Zati-aliləri, Bakı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dövründə dünyanın paytaxtına çevrilir. Bir daha fundamental bir vədi qeyd etməliyik ki, əgər biz şəhərsalmanı inkişaf etdirməsək, öz vədimizi övladlarımız qarşısında yerinə yetirməmiş olacağıq. Beləliklə, bu forumun mövzusu, sadəcə, bir şüar deyil, bu, bizi tədbirlərin görülməsinə səsləyən bir çağırışdır. Amma icazə verin, bir daha xatırladım, bu çağırış, tədbirlərin görülməsi real dünyaya və real iqtisadiyyata söykənməlidir. Bu baxımdan biz bütün dünya üçün bu məsələni həll etməliyik və okeanları, dənizləri qət edərək siyasi iradəmizi göstərməliyik. Düzgün siyasət yürütməliyik və bütün vətəndaşlar üçün yaşayış yerlərinin qurulmasına çalışmalıyıq.

BMT-nin Məskunlaşma Proqramının göstəricilərinə görə, qlobal ev şəraitləri böhranı ilə üzləşən insanların sayı 2,9 milyarddır və onlar qeyri-rəsmi yaşayış yerlərində məskunlaşırlar. İki milyard şəhər sakini 2040-cı ilə qədər 0,5 Selsi dərəcəsindən əziyyət çəkəcəklər. Bu, nəinki qeyri-adekvat yaşayış yerləridir, o cümlədən mühüm rəqəmlərdir və onlar bu gün həyat mübarizəsi aparırlar. BMT-nin Məskunlaşma Proqramı Assambleyasının prezidenti kimi mən qeyd edirəm ki, nazirlərin dünən keçirilən görüşündə qeyd olundu ki, Nyu Yorkda Yeni Şəhərsalma Gündəliyinin orta səviyyədə nəzərdən keçirilməsi üçün yüksəksəviyyəli qeyri-rəsmi görüşə hazırlaşır və onlar da eyni istiqamətdə addımlayaraq oxşar çətinliklərlə üzləşirlər. Bu, bizim ümumi məqsədimizdir və biz ona nail olmalıyıq.

Mən burada sizə söyləməliyəm ki, biz bu mübarizədə tək deyilik. Gəlin, öz səylərimizi iki dəfə artıraq ki, Yeni Şəhərsalma Gündəliyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün yerli səviyyədə işlər görək. Bildiyiniz kimi, bizim assambleyamız hamı üçün adekvat iş yerlərinin yaradılması baxımından hökumətlərarası işçi qrupunu yaratmışdır. Bu, tarixi bir platformadır ki, çoxtərəfli əməkdaşlıq baş tutsun və qlobal siyasət ilə yerli səviyyədə görülən işlər arasında körpü salınsın.

Zati-aliləri, mən burada assambleyanın prezidenti kimi qarşınızda çıxış edərək bildirmək istəyirəm ki, şəxsən mənim ölkəmin - Malayziyanın da bu sahədə təcrübəsi var. Malayziyanın getdiyi yol bu gün Yeni Şəhərsalma Gündəliyinə uyğundur və Malayziyanın "Madani" planına tam uyğun gəlir. Biz məhz 1,1 milyon əlçatan evin yaradılmasına, 77 faiz evə sahib olma dərəcəsinə nail olmuşuq. 150 milyon ağac əkərək yaşıllıq hədəflərinə nail olmuşuq və yerli hakimiyyət orqanları könüllü şəkildə yerli səviyyədə 60 faizdən çox tədbirlər görmüşdür. Bu da Dayanıqlı İnkişaf Məqsədlərinə doğru həyata keçirdiyimiz siyasətin müsbət təsirini göstərir.

Zati-aliləri, bu gün mən xüsusi vurğulayıram ki, əgər biz şəhərlərin xəritəsinə baxsaq, ona sırf elə yol və zonalardan ibarət ərazi kimi baxmalı deyilik. Biz burada simaları görürük.







Əgər biz görürüksə ki, gənc sahibkar xarabalıqda öz biznesinə başlamaq istəyirsə, dənizin çəkilməsi nəticəsində sahilyanı yerlərdə ailələr risklərlə üzləşirsə, onda hamımız bu öhdəliyi öz üzərimizə götürməli, insanlar üçün doğru şəhərsalmanı həyata keçirməliyik və məhz illik 5,4 trilyon dollar maliyyə boşluğu üzə çıxır. Mən növbəti il Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bu mandatımı verdiyim zaman sizi dəvət edirəm ki, biz tədbirlər planının həyata keçirilməsinə başlayaq. Bu, iddialı və çox hərtərəfli bir proqram olacaqdır.

Zati-aliləri, hörmətli hökumət başçıları, Azərbaycan ev sahibi olaraq anlayır ki, evin olması əsl dəyərdir və bu, çox mühüm bir məfhumdur. Burada gözəl bir kəlam var: "Hər kəsin öz evi öz qibləsidir". Əsrlər boyu belə olubdur. Özünü evdə hiss etmək - bu, olduqca vacibdir. Bir halda ki, dünya qeyri-sabit vəziyyətlə üzləşir və görürük ki, təsisatlar öz səlahiyyətlərini yerinə yetirmir, yetirə bilmir, texnologiyalar bizim cəmiyyətimizi dəyişir - bu anlarda yadda saxlayın ki, gələcək onu proqnozlaşdıranlara yox, onu quranlara, onu inşa edənlərə məxsusdur və bizim vəzifəmiz gələcək şəhərsalmanın memarlarına kömək etməkdir.

Azərbaycanın daha bir gözəl kəlamı var və bu, bizim işimizə aiddir: "Dama-dama göl olar, axa-axa sel olar". Bir daha gəlin, Azərbaycanın bu müdrik kəlamını özümüz üçün təlimat kimi götürək. Bir halda ki, hər hansı bir siyasət müzakirə oluna bilər, hər hansı bir tərəfdaşlıq formalaşa bilər və hər hansı bir öhdəlik Bakıda formalaşa bilər, bu, ümid çırağıdır. Gəlin, birgə olaraq tədbirləri formalaşdıraq və o, bizi gələcəyə doğru aparacaq, heç kəs və heç bir yer diqqətdən kənarda qalmayacaq.

Mən sizin hamınıza çox məhsuldar və səmərəli forum arzu edirəm. Çox sağ olun.

❖ ❖ ❖

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru **Anaklaudia Rossbax** çıxış edərək dedi:

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, BMT-nin Məskunlaşma Proqramı Assambleyasının prezidenti Nqa Kor Minq.

Zati-aliləri, hörmətli nazirlər, öz dövlətlərinin və yerli hakimiyyət orqanlarının hörmətli nümayəndələri.

Hörmətli həmkarlar və qonaqlar.

Bütün protokol qaydalarına riayət edirəm. Mən əvvəlcə səmimi qəlbdən öz fikrimi ifadə edirəm ki, Bakıda çox gözəl bir hava şəraiti yaranıb və biz bundan çox məmnunuq.

Zati-aliləri, biz gələcəyin nə gətirəcəyini bilməyə bilərik, lakin insanların bu gün qarşılaşdığı reallıqları yaxşı bilirik - iqlim böhranı, məcburi köçkünlük, münaqişələr və dağıntılar. Bu çətinliklər fonunda 1 milyarddan çox insan hələ də qeyri-sabit şəraitdə yaşayır - suya, kanalizasiyaya, elektrik enerjisinə, layiqli işə və təhsilə etibarlı çıxışı olmadan, xəstəliklərin yayıldığı və ən çox uşaqların sağlamlıq baxımından əziyyət çəkdiyi əlverişsiz mühitdədir. Bu, insanların böyük əksəriyyətinin yaxın gələcəkdə şəhərlərdə yaşayacağı bir dünyadır. Elə şəhərlər ki, burada bir çox gənclər, yaşlı insanlar, miqrantlar və yeni gələn şəxslər yaşamağa maddi imkan tapa bilməyəcəklər. Elə şəhərlər ki, burada daha çox insan məcbur olub küçələrə və qeyri-rəsmi yaşayış məntəqələrinə çıxacaq. Getdikcə daha çox olanlar və olmayanlar arasında bölünən şəhərlər üzə çıxacaq.

Zati-aliləri, hörmətli həmkarlar. Dünyanın müxtəlif icmalarından və yüksəksəviyyəli liderlərindən ibarət on minlərlə insanın burada - Bakıda bir araya gəlməsi təsadüfi deyil. Məqsədimiz bir mühüm suala cavab tapmaqdır: qeyri-müəyyənlik, qeyri-sabitlik və dağıntılar dövründə hər kəs üçün adekvat mənzili necə təmin etmək olar?

Son günlər Azərbaycanın bəzi bölgələrinə təsir edən güclü yağış və tufanlara baxmayaraq, - Zati-aliləri də bunu xatırlatdı, - biz burada, Bakıda dözümlülük, - biz bunu şəhərə aid edirik, - qətiyyət və ortaq məqsəd hissi ilə bir araya gəlmişik. Bu, reallıqdır, bu gün bir çox şəhərlərdə görünür.

Biz burada komanda halında işi, sürətli reaksiyanı görürük və bizim hamımızı bu gözəl bir məkana topladığınıza görə sizə təşəkkürümüzü bildiririk. Maraq səviyyəsi və iştirak burada müstəsnadır. Bu xarakterli heç bir forum indiyədək bu qədər geniş və müxtəlif qlobal auditoriyanı bir araya gətirməmişdir. Bu isə mənzil və dayanıqlı şəhər inkişafının ortaq gələcəyimizin mərkəzində dayanmasını bizə daha da yaxşı şəkildə göstərir və beləliklə, gəlin, özümüzə xatırladaq ki, biz birlikdə bu yolda sıfırdan başlamırıq.

Bütün regionlarda mənzil məsələsi iqtisadi artım, sosial inklüzivlik və iqlim dayanıqlığı ilə əlaqəli əsas siyasət prioritetinə çevrilir. Afrika boyunca hökumətlər əlçatan mənzil layihələrini, qeyri-rəsmi yaşayış məntəqələrinin yenilənməsini və infrastruktur investisiyalarını inkişaf etdirirlər. Asiya və Sakit okean regionunda bir sıra ölkələr şəhərin yenilənməsi, əlçatanlıq və genişmiqyaslı mənzil tikintisi proqramlarını həyata keçirir. Latın Amerikasında sosial proqramlar var, Yaxın Şərqdə mənzil siyasəti getdikcə daha çox iqtisadi şaxələndirmə və demoqrafik dəyişikliklərlə əlaqələndirilir. Avropada və Şimali Amerikada isə hökumətlər artan şəhər təzyiqlərinə cavab olaraq əlçatan mənzil siyasəti həyata keçirirlər.

Dostlar, dünya diqqətini mənzil məsələsinə yönəltdiyi bir vaxtda artıq paylaşdığımız ortaq prinsipləri və baxışları da özümüzə xatırladırıq. Biz qəbul edirik ki, mənzil böhranı həm də bərabərlik, dayanıqlılıq və insan hüquqları böhranıdır. Şəhərlərimizin gələcəyi istisna üzərində deyil, inklüzivlik üzərində qurulacaqdır. Mənzil sistemləri uğursuz olduqda şəhərlər inkişaf edə bilməz. Biz bilirik ki, insanlar evlərini itirdikdə onlar, sadəcə, divarları və damı deyil, təhlükəsizliyini, dolanışıq imkanlarını və aidiyyət hisslərini də itirirlər. Mənzil hüququnun iqlim dəyişikliyi səbəbindən getdikcə daha çox təhdid altında olduğunu qəbul edərək biz həmçinin ortaq bir fikri paylaşırıq: iqlim fəaliyyəti və mənzil siyasəti artıq ayrı-ayrı müzakirələr mövzusu ola bilməz. Bərpa mənzildən başlayır, dayanıqlılıq elə evin özündən başlayır. Bu gün tikdiyimiz evlər sabahın iqlim reallıqlarına davam gətirməlidir. Buna görə də biz inanırıq ki, mənzil siyasətdən kənarda deyil, qlobal fəaliyyətin mərkəzində yer almalıdır.

Mənzilin iqtisadi və maliyyə aspektlərini araşdırarkən biz birlikdə qəbul edirik ki, mənzil yalnız sosial zərurət deyil, həm də güclü iqtisadi mühərrikdir. Mənzilin sosial və iqtisadi potensialını reallaşdırmaq üçün möhtəkirliyə deyil, evləri maliyyələşdirən maliyyə sistemlərinə ehtiyac var.

Yeni Şəhərsalma Gündəliyinin aralıq icmalı həm bugünkü şəhər problemlərinin aktuallığını, həm də Kitoda verilmiş öhdəliklərin davamlı əhəmiyyətini təsdiqləməlidir. WUF13 praktiki fəaliyyət, tərəfdaşlıq və investisiyalar vasitəsilə icranı sürətləndirmək üçün bir fürsətdir. Artıq diqqəti həll yollarına yönəltməyin vaxtıdır. Hamı üçün adekvat mənzilə nail olmağın yolları hansılardır? Biz harada səhv etmişik və irəliləyişə nail olmaq üçün nəyin fərqini nəzərə almalıyıq? BMT-nin Məskunlaşma Proqramı qlobal mənzil böhranının həllinə malikdirmi? Qeyri-adekvat mənzil şəraitində yaşayan təxminən 3 milyard insan üçün bütün cavablarımız varmı? Gecəqondularda və qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1 milyarddan çox insan üçün nə edə bilərik? Yaxud evsiz vəziyyətdə olan təxminən 300 milyon insan üçün nə edə bilərik? Mən bunu iddia etməyəcəyəm, lakin bunu əlavə etməyə icazə verin. Burada məhz kollektiv səylər onu göstərir. Biz əlbəttə ki, burada bir araya gəlməyimizin vaxtını, xərcini əlavə etməyə cəsarət ediriksə, iqlimə təsiri əsla yüngül qiymətləndirməməliyik. Biz bir-birimizi dinləməli, təcrübəni bölüşməli və addımlar atmalıyıq. Bakı bu ilin iyul ayında keçiriləcək Baş Assambleyanın yüksəksəviyyəli toplantısına aydın bir mesaj göndərmişdir. Biz mənzil böhranını, sadəcə, tanımaqdan çıxaraq, Dayanıqlı İnkişaf Məqsədlərinə konkret siyasətlər və investisiyalar yatırmalıyıq. Ümid edirəm ki, biz Bakıdan bu inamla ayrılacağıq: bugünkü qlobal çağırışlara baxmayaraq, adekvat mənzil hər kəs üçün istisnasız olaraq əlçatan ola bilər.

Sonda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına evsahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirmək istəyirəm.

İndi isə mən məmnuniyyətlə sessiyanı rəsmi olaraq açıq elan edirəm. Sağ olun.

❖ ❖ ❖

Sonra Azərbaycanla bağlı videoçarx nümayiş olundu.

❖ ❖ ❖

Bununla da rəsmi açılış mərasimi başa çatdı.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB

## Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Anaklaudia Rossbax Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası ilə bağlı gördüyü işlərin onda dərin təəssürat hissi yaratdığını deyərək, bu mötəbər tədbirin təşkili ilə əlaqədar ölkəmizin tətbiq etdiyi innovativ yanaşmaları alqışladığını vurğuladı, onların sessiyanın daha məzmunlu keçirilməsinə zəmin yaratdığını qeyd etdi. Bütün bunlara görə Azərbaycan tərəfinə minnətdarlıq edən qonaq ölkəmizin bu tədbirə möhtəşəm evsahibliyi edəcəyinə əminliyini bildirdi.

Anaklaudia Rossbax COP29-un Azərbaycanda yüksək səviyyədə keçirildiyini xatırladaraq, bunun ardınca ölkəmizdə WUF13 kimi tədbirin təşkilinin önəminə toxundu. O, COP və WUF-un BMT sistemində ən böyük tədbirlər hesab olunduğunu deyərək vurğuladı ki, mahiyyəti etibarilə Azərbaycan bu tədbirlər arasında əlaqə yaradıb.

Qonaq ölkəmizin BMT-nin Məskunlaşma Proqramının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələrini yüksək qiymətləndirdi, Azərbaycan-UN-Habitat əməkdaşlığını, o cümlədən respublikamızda keçirilən Milli Şəhərsalma forumları ənənəsini təqdir etdiyini dedi. O, bundan sonra da əməkdaşlığın uğurla davam edəcəyinə ümidvarlığını bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz tərəfindən tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımlar atılıb. Prezident İlham Əliyev bir neçə gün əvvəl Bakı Olimpiya Stadionunun ərazisində WUF13 ilə bağlı görülən işlərlə yerində tanış olduğunu xatırlatdı, bu tədbirin nəticəyönümlü olacağına ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanın Ümumdünya Şəhərsalma Forumu təcrübəsinin, həmçinin ölkəmizdə şəhərsalma sahəsində tətbiq olunan innovativ yanaşmaların, işğaldan azad edilmiş ərazilərimizdə postmünaqişə şəraitində genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılmasının digər ölkələr üçün də nümunəvi xarakter daşıdığını bildirdi və ölkəmizin bu təcrübəni bölüşməyə hazır olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramının fəaliyyətini dəstəklədiyi məmnunluqla vurğulandı, ölkəmizlə bu qurum arasında əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr aparıldı.

Görüşdən sonra Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) arasında WUF13 Bakı standartlarına əsasən gələcəkdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumun sessiyalarına evsahibliyi üzrə əməliyyat təlimatının birgə hazırlanmasında əməkdaşlıq etmək məqsədilə Niyyət Məktubu imzalandı. Gələcək sessiyalara evsahibliyi edəcək tərəflərə qərarqəbuletmə prosesinə dəstək olmaq üçün nəzərdə tutulan sənəd Bakıda keçirilən WUF13-ün uğurlu hazırlıq mərhələsinə əsaslanmaqla, növbəti tədbirlərin operativ səmərəliliyini artırmağı hədəfləyir.

## Prezident İlham Əliyev Pakistanın Pəncab əyalətinin Baş nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Məryəm Nəvaz Şərif atasının - Məhəmməd Nəvaz Şərifin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Baş nazirinə və Məhəmməd Nəvaz Şərifə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevlə Məhəmməd Nəvaz Şərif arasındakı dostluq münasibətlərini xatırladı.

WUF13-də iştirak etməkdən məmnun olduğunu söyləyən qonaq buna görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, tədbirin yüksək səviyyədə təşkil edildiyini və Bakıda şəhərsalma ilə bağlı qlobal məsələlərin müzakirə olunacağını vurğuladı.

Bakının gözəlliyinin onu valeh etdiyini deyən Məryəm Nəvaz Şərif paytaxtımızın mədəniyyət və müasir şəhərsalmanın vəhdətinin gözəl nümunəsi olduğunu qeyd etdi.

Qonaq Bakıya səfəri çərçivəsində müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdiyini, onun xatirəsini hörmət və ehtiramla andığını dedi.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında qardaşlıq münasibətlərinin və strateji əlaqələrin inkişafından məmnunluq ifadə edildi, siyasi, iqtisadi, diplomatik, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, regionlararası əməkdaşlığın inkişaf etdiyi vurğulandı, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi. Azərbaycanın "ASAN xidmət" təcrübəsinə əsasən Pakistanda da mərkəzlərin yaradıldığı qeyd edildi.

Dövlətimizin başçısı bu gün Azərbaycan-Pakistan əlaqələrinin üçtərəfli - Azərbaycan-Türkiyə-Pakistan formatında da inkişaf etdiyini diqqətə çatdırdı.

## Prezident İlham Əliyev Esvatini Kralının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Esvatini Kralı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştiraka dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bu tədbirin dünyada şəhərsalma sahəsində aktual olan müxtəlif mövzuları müzakirə etmək, həmçinin təcrübə mübadiləsi aparmaq üçün çox yaxşı fürsət olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Esvatini arasında ikitərəfli əlaqələrin inkişafı, o cümlədən enerji, mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Keniya Prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycana ilk dəfə səfər etdiyini deyən Keniya Prezidenti WUF13-ə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Uillyam Samoei Ruto WUF-un ilk dəfə Keniyada keçirildiyini deyərək, ölkəsinin BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) da evsahibliyi etdiyini vurğuladı. Qonaq Keniyada yaşayış məskənlərinin yaradılması üzrə böyük miqyasda layihələrin həyata keçirildiyini qeyd etdi.

Əlaqələrimizin dinamik surətdə inkişafından məmnunluğunu bildirən Uillyam Samoei Ruto Azərbaycan Prezidentini Keniyaya rəsmi səfərə dəvət etdi.

Dəvəti məmnunluqla qəbul edən dövlətimizin başçısı öz növbəsində Keniya Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Keniya Prezidenti Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında dövlətimizin başçısının nümayiş etdirdiyi liderliyə görə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev sülh gündəliyinin daha da gücləndirilməsi və regionda davamlı sülhün yaradılması istiqamətində Azərbaycanın səyləri davam etdirdiyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Keniya arasında enerji, müdafiə sənayesi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi, son dövrlərdə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrimizin inkişafında müsbət rolu qeyd edildi.

## Prezident İlham Əliyev Türkmənistanın Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Türkmənistan Prezidentinin yanında Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədri Deryageldi Orazovu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Deryageldi Orazov Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan Xalq Məsləhətinin Sədrinə və Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi.

Qonaq Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsi ilə əlaqədar təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Füzulidə Türkmənistan tərəfindən məscidin tikilməsi təşəbbüsünə görə bir daha təşəkkürünü bildirdi və hazırda tikintinin davam etdiyini dedi.

İşğal dövründə həmin ərazilərimizin Ermənistan tərəfindən darmadağın edildiyi, şəhərlərin viran qoyulduğu vurğulandı. Hazırda isə orada genişmiqyaslı bərpa işlərinin aparıldığı bildirildi.

Deryageldi Orazov işğaldan azad edilmiş ərazilərimizə yenidən səfər edəcəyini və layihələrlə yerində tanış olacağını dedi.

## Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və Vitse-prezident, baş nazir və Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana və Şeyx Məhəmməd bin Rəşid Al Məktuma çatdırmağı xahiş etdi.

Suhail Al Mazrouei BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, burada qlobal şəhərsalma gündəliyi ilə bağlı vacib məsələlərin müzakirəsi üçün yaxşı imkanların olduğunu dedi.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərimizin genişləndiyi məmnunluqla qeyd edildi, əməkdaşlığın müxtəlif istiqamətlərdə, həmçinin siyasi, iqtisadi, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələr üzrə inkişafı vurğulandı.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB

## Prezident İlham Əliyev Serbiya Prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiclə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Aleksandar Vuçiç BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əhəmiyyətini vurğulayaraq, bu tədbirin Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri məmnunluqla xatırlandı, bu səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində addımların atıldığı vurğulandı.

Dövlət başçılarının səfərlərinin, həmçinin müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işində önəminə toxunuldu.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu bildirilərək, iqtisadi, enerji, investisiyalar, birgə layihələrin icrası və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün yaxşı imkanların mövcudluğu qeyd edildi.

Görüşdə xalqlarımızın yaxınlaşdırılması və turizm potensialımızın möhkəmləndirilməsi baxımından Serbiyanın "Airserbia" şirkətinin Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşlar həyata keçirməsinin əhəmiyyətinə toxunuldu.

Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Bolqarıstan Prezidenti ilə görüşüb

**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, ali qonaq bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti ilə görüşünü və görüş əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı.

Bolqarıstan Prezidenti hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirdi. Vurğuladı ki, Bolqarıstan bu tədbirdə dövlət başçısı, eyni zamanda bu ölkənin 10-dan artıq müxtəlif bələdiyyələrinin rəhbərləri, həmçinin Şuşa şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərinin meri səviyyəsində təmsil olunur.

Qonaq Ümumdünya Şəhərsalma Forumunun sessiyasının dünyada bu sahə ilə bağlı aktual mövzuların müzakirə edildiyi mühüm platforma olduğunu deyərək, tədbirin ölkəmizdə təşkil edilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İliyana Yotova Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı, bu xüsusda "Həmrəylik Halqası" layihəsinin önəmini qeyd etdi. Mədəni və humanitar əlaqələrə toxunan Bolqarıstan Prezidenti Azərbaycanda bolqar dilinin tədrisini yüksək qiymətləndirdi. O, həmçinin Heydər Əliyev Fondunun Bolqarıstanda həyata keçirdiyi humanitar layihələri, Veliko Tırnovo ilə Şuşa şəhərinin qardaşlaşmasını və bu xüsusda orada Şuşa parkının salındığını qeyd etdi.

İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında səmərəli əməkdaşlığın qarşılıqlı hörmət və etimad əsasında möhkəmləndiyi vurğulandı, enerji, həmçinin elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu.

Azərbaycanla Bolqarıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına toxunuldu.

Dövlət başçıları ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Çin Dövlət Şurasının Baş nazirinin müavinini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaq ilk növbədə Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı. O qeyd etdi ki, Si Cinpin Prezident İlham Əliyevi Çinin dostu kimi dəyərləndirir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev dedi ki, Çin Xalq Respublikasının Sədrinin onu Çinin daimi dostu adlandırmasını yüksək qiymətləndirir.

Can Quoçin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında qlobal urbanizasiya gündəliyi ilə bağlı aktual mövzuların müzakirə edildiyini bildirdi, tədbirdə iştirak etməkdən şərəf hissi duyduğunu dedi və ölkəsində bu foruma mühüm əhəmiyyət verildiyini vurğuladı. O, ölkəmizin belə bir mötəbər tədbirə evsahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq həmçinin forumun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışının çox məzmunlu olduğunu dedi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Çinin bu tədbirdə yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasını Azərbaycana hörmət və dostluq əlaməti kimi qiymətləndirdi.

Azərbaycan-Çin əlaqələrində sürətli artımı məmnunluqla qeyd edən qonaq dövlət başçılarının görüşlərini xatırladı, münasibətlərimizin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdığını dedi.

O, Çinin Tayvan regionu ilə əlaqədar Azərbaycanın qətiyyətli mövqeyinə görə təşəkkürünü bildirdi. Çinin də Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Can Quoçin qeyd etdi ki, Çin Azərbaycanın xalqın maraqları əsasında seçdiyi inkişaf yolunu dəstəkləyir.

Prezident İlham Əliyev Çinə dövlət səfərini məmnunluqla xatırladı və göstərilmiş qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı bu səfər zamanı imzalanmış hərtərəfli strateji tərəfdaşlıq sənədinin önəmini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın vaxtilə separatizmdən əziyyət çəkən ölkə kimi separatizmin bütün forma və təzahürlərini pislədiyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz Çinin Tayvan regionunda keçirilmiş qanunsuz seçkiləri nəinki tanımayıb, hətta onun pislənilməsi bəyanatı ilə çıxış edən yeganə dövlətlərdən biri olub. Prezident İlham Əliyev bu xüsusda vurğuladı ki, Azərbaycan "vahid Çin" siyasətini daim dəstəkləyir.

Söhbət zamanı müxtəlif sahələri əhatə edən Azərbaycan-Çin münasibətlərinin uğurlu inkişafı vurğulandı.

Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əlaqələr qeyd olundu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi vurğulandı. Azərbaycanla Çin arasında iqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu, siyasi, iqtisadi, tranzit, nəqliyyat, yükdaşımalar, hərbi-texniki tərəfdaşlıq və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 18-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu ilin aprelində Gürcüstana dövlət səfərini məmnunluqla xatırladı, bu səfərin münasibətlərimizin möhkəmlənməsi işinə verdiyi töhfəni qeyd etdi. Prezident İlham Əliyev bu gün imzalanacaq sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqdan xüsusi məmnunluq hissi keçirdiyini dedi.

Prezident İlham Əliyevə Gürcüstana dövlət səfəri etdiyinə görə minnətdarlığını bildirən İrakli Kobaxidze bu səfərin hər kəsdə dərin təəssüratlar oyatdığını vurğuladı.

Qonaq Azərbaycan ilə Gürcüstanın bir çox ölkələr üçün bağlantılar baxımından vacib rol oynadığını qeyd etdi və gələcəkdə bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsinin önəminə toxundu.

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentini təbrik edən İrakli Kobaxidze tədbirin dünya şəhərsalma gündəliyini müzakirə etmək üçün yaxşı platforma olduğunu dedi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimiz arasında mehriban qonşuluq və dostluğa əsaslanan münasibətlərin bir çox istiqamət üzrə dinamik inkişafına toxunuldu, ikitərəfli gündəliyimizin çox geniş olduğu qeyd edildi. Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsində rolu vurğulandı.

Sonra Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş və "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalandı.

## Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyinə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq və dostluq əlaqələrinin göstəricisidir.

Şavkat Mirziyoyevlə görüşlərini xatırladan Prezident İlham Əliyev bu görüşlər əsnasında müzakirə olunmuş layihələrin həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı Bakıda Özbəkistan parkının inşasını da qeyd etdi.

Dost və qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Şavkat Mirziyoyev BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, bu tədbirin şəhərsalma mövzusuna həsr olunan mühüm qlobal məsələlərin müzakirəsinə imkan yaratdığını vurğuladı və dəvətə görə təşəkkür etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Ölkəmizə hər səfərində inkişafın şahidi olduğunu deyən Özbəkistan Prezidenti Azərbaycanın Qarabağda yeni şəhərlər və kəndlər saldığını məmnunluqla vurğuladı və bunu Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar kimi qiymətləndirdi.



Şavkat Mirziyoyev dedi ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı uğurlar, Vətən müharibəsində qazanılan Qələbə Prezident İlham Əliyevin səylərinin və Vətənə, xalqa sevgisinin nəticəsidir.

Xoş sözlərə görə təşəkkür edən dövlətimizin başçısı Qarabağın bərpasında Özbəkistan Prezidentinin göstərdiyi dəstəyi qeyd etdi. Bu xüsusda vurğulandı ki, Füzulidə Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Qarabağın bərpası prosesində ilk hədiyyə olub. Prezident İlham Əliyev bunu qardaşlığın, dəstəyin və həmrəyliyin təcəssümü kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə səfərləri, həmçinin görüşləri məmnunluqla xatırlandı.

Dövlət başçılarının verdikləri tapşırıqlara uyğun olaraq iki ölkə arasında həyata keçirilən iqtisadi layihələr bir daha nəzərdən keçirildi, onların icrasından məmnunluq ifadə olundu. Bu xüsusda energetika, mədən sənayesi, kənd təsərrüfatı, maşınqayırma sənayesi, əczaçılıq və digər sahələrdə olan layihələrə toxunuldu.

Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik xarakteri daşıdığı vurğulanaraq, bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# DÜNYA BAKIDA TOPLAŞIB

## WUF13-də iştirak edən dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət verilib



Mayın 18-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət verilib.

# WUF13 dünya mediasının diqqət mərkəzindədir

**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) dünya mediasının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, **"The Europe Today" nəşrinin** "Azərbaycan qlobal şəhər inkişafı vizyonunu nümayiş etdirir: Bakıda rekord qıran WUF13 tədbiri keçirilir" sərlövhəli məqaləsində Azərbaycan paytaxtının evsahibliyi etdiyi forumun əhəmiyyəti vurğulanır. Qeyd olunur ki, genişmiqyaslı beynəlxalq toplantı getdikcə qlobal dialoq, beynəlxalq əməkdaşlıq və əsas mədəni və idman tədbirləri mərkəzinə çevrilən Azərbaycan üçün daha bir mühüm mərhələ kimi qəbul edilir. "WUF13-ün uğurlu təşkilini təmin etmək üçün Azərbaycan hakimiyyəti hazırlıqlara, infrastrukturun inkişafına, logistikaya, nəqliyyata, təhlükəsizliyə və beynəlxalq tərəfdaşlarla əlaqələndirməyə nəzarət etməkdən məsul olan xüsusi Təşkilat Komitəsi yaradıb. Rəsmilər bildiriblər ki, forumun Azərbaycanda keçirilməsi qərarı ölkənin əsas qlobal tədbirləri təşkil etmək qabiliyyətinə olan güclü beynəlxalq inamı və müasir şəhərsalma siyasətinin tanınmasını əks etdirir", - deyə məqalədə vurğulanır.

Diqqətə çatdırılır ki, şəhərsalma və davamlı inkişaf Prezident İlham Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi gündəliyinin əsas strateji prioritetləri kimi müəyyən edilib. Hakimiyyət orqanları qeyd edib ki, müasir şəhər ekosistemlərini inkişaf etdirərkən memarlıq irsinin qorunması dövlət siyasətinin əsas sütunu olaraq qalır. Azərbaycanın 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi sektora verilən əhəmiyyəti bir daha vurğulayır.

Nəşr yazır: "Forumun ən diqqətəlayiq məkanlarından biri WUF tarixində indiyə qədər təşkil edilmiş ən böyük sərgi olan 3,5 hektarlıq "Şəhər sərgi zonası"dır. Sərgidə dünyanın 217 təşkilatı iştirak edir, 66 ölkə isə innovativ şəhər həlləri, mənzil layihələri və davamlı inkişaf təşəbbüslərini nümayiş etdirən milli pavilyonlar vasitəsilə təmsil olunur.

Ziyarətçi təcrübəsini artırmaq üçün təşkilatçılar, həmçinin iştirakçılar üçün müasir şəhər həyatının atmosferini əks etdirən mədəni, istirahət və yemək təcrübələri təqdim etmək üçün nəzərdə tutulmuş 2,5 hektarlıq açıq hava "WUF13 Bulvarı" da yaradıblar. Könüllülər tədbir boyu iştirakçıların qeydiyyatı, informasiya xidmətləri, logistika, sərgi koordinasiyası və mədəni fəaliyyətlərdə kömək etməklə mərkəzi rol oynayırlar".

Məqalənin sonunda vurğulanır ki, təşkilatçılar WUF13-ün uğurlu evsahibliyi etməsinin Azərbaycanın qlobal şəhər problemlərinin həllinə və dünyada təhlükəsiz, dayanıqlı və inklüziv şəhərlərin təşviqinə artan töhfəsini nümayiş etdirdiyini vurğulayıblar.

**Çinin nüfuzlu "China Daily" nəşrində** "Şanxay mükafatı Azərbaycanda keçirilən 13-cü Ümumdünya Şəhərsalma Forumunda təqdim olunub" sərlövhəli materialında qeyd olunur ki, şəhərlərdə davamlı inkişaf üzrə Qlobal mükafat və ya Şanxay mükafatı Azərbaycanın Bakı şəhərində keçirilən 13-cü Ümumdünya Şəhərsalma Forumunda qlobal nailiyyətləri, innovativ təcrübələri və davamlı şəhər inkişafı üçün əməkdaşlıq baxışlarını vurğulayan bir sıra tədbirlər və sərgilər vasitəsilə təqdim olunur. Bu mükafat Davamlı İnkişaf Məqsədlərinə və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinə doğru konkret hərəkətləri təşviq etməklə yanaşı, şəhərlər arasında mübadilələri və çoxtərəfli əməkdaşlığı gücləndirməyi hədəfləyir.

**Pakistanın DND media orqanı** Bakıda keçirilən WUF13-ün qlobal və regional miqyasda aktuallığı və əhəmiyyəti barədə yazıb. Qeyd olunur ki, müasir şəhərsalma Prezident İlham Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi siyasətinin əsas strateji prioritetlərindən biri kimi müəyyən edilib. Müasir urbanizasiyanın çağırışlarına cavab verən ekosistemlər qurarkən, memarlıq ənənələrinin qorunması dövlət siyasətinin əsas istiqamətini təşkil edir. 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu sahəyə göstərilən yüksək diqqətin təzahürüdür.

Daha sonra vurğulanır: "Qlobal şəhərsalma proseslərini daim diqqət mərkəzində saxlayan bir ölkə olaraq, Azərbaycan təkcə nəzəri konsepsiyalar inkişaf etdirmir, həm də innovativ yanaşmalar tətbiq edir və onları təcrübədə uğurla tətbiq edir. Ən bariz nümunələrdən biri miqyas, əhatə dairəsi və icra sürəti baxımından qlobal miqyasda unikal bir layihə kimi qəbul edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı yenidənqurma və inkişafdır. Bu baxımdan, Bakıdakı WUF13 Azərbaycanın konseptual şəhərsalma modelini və azad edilmiş ərazilərdə tətbiq olunan unikal praktik təcrübəni təqdim etmək üçün əvəzsiz qlobal platforma rolunu oynayır. Bakı Olimpiya Stadionunu və ətrafını əhatə edən əməliyyat sahəsi ümumilikdə 53 hektar ərazini əhatə edir. Forumun logistika və infrastruktur tədbirləri ən yüksək beynəlxalq standartlara uyğun olaraq ən incə detallarına qədər planlaşdırılıb. Ümumi ərazinin 43 hektar hissəsi əsas tədbir məkanı, 10 hektarı isə nəqliyyat terminalları və dayanacaq-transfer zonaları üçün ayrılıb".



**"Nsuzivo", "B92", "NewsBalkans", "Politika"** nəşrləri, **RTK və NİSTV** telekanalları Serbiya Prezidentinin WUF13-də iştirakı, onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə müfəssəl məlumat verib. Qeyd olunub ki, Azərbaycan paytaxtının evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumu Serbiya və digər Balkan ölkələri üçün xüsusi əhəmiyyətə malikdir. Materialda forumun ən yüksək səviyyədə təşkil olunduğu vurğulanıb.

Özbəkistanın rəsmi **UZA agentliyi və "Daryo" nəşrində** dərc olunan materiallarda bu ölkənin Prezidenti Şavkat Mirziyoyevin WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə geniş məlumat verilib. Həmçinin diqqətə çatdırılıb ki, foruma evsahibliyi edən Azərbaycan WUF13-ü ölkənin davamlı inkişaf və şəhərsalmanın qlobal gündəliyindəki mövqeyini gücləndirmək üçün fürsət kimi görür. "Bakı müasir urbanizasiyanın imkanları baxımından WUF13 üçün uyğun bir məkandır: tarixi irsi qoruyarkən sürətli modernləşmə və innovasiyanı mədəni davamlılıqla birləşdirmək burada uğurla həyata keçirilir", - deyə memarlıq və şəhərsalma üzrə ixtisaslaşmış İsveçrə firması olan "SA Partners"in təsisçi tərəfdaşı Tomas Kovaridın sitat gətirilib.

Nəşrlər əlavə ediblər ki, Azərbaycanı xüsusilə cəlbedici edən onun paylaşa biləcəyi təcrübənin zənginliyidir. Məsələn, Qarabağ bölgəsində dünyanın ən iddialı yenidənqurma layihələrindən birində davamlılığı, əlverişli mənzil və "ağıllı şəhər" prinsiplərini birləşdirərək əsl təcrübə inkişaf etdirilir".

**Gürcüstanın "ipress", "interpressnews" nəşrlərində** dərc olunan məqalələrdə bu ölkənin Baş naziri İrakli Kobaxidzenin WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə məlumat verilir. Həmçinin qeyd olunur ki, Bakıda aparılan müzakirələr Cənubi Qafqaz regionunda şəhərsalma üzrə təcrübə mübadiləsi və əməkdaşlıq nöqteyi-nəzərindən əhəmiyyətlidir.

**"Euronews" telekanalının** saytında dərc olunmuş "İran Bakıdakı urbanizasiya forumunda bərpa dəstəyinə çağırıb" sərlövhəli xəbərdə qeyd olunur ki, İranın mənzil nazirinin müavini müharibədə zərər çəkmiş 150 min evin yenidən qurulması üçün beynəlxalq dəstəyə çağırış etmək məqsədilə Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunda müraciətlə çıxış edib. Tehran rəsmisi nümayəndələrə fevral ayından bəri onlarla şəhər və qəsəbədə on minlərlə mənzilin zədələndiyini və ya dağıldığını bildirib.

**Moldovanın "noi.md" portalında** dərc olunan məqalədə Bakıdakı WUF13 tədbiri Moldova nümayəndələri üçün urbanizasiya sahəsində faydalı təcrübə mübadiləsi fürsəti olacaq. Materialda Azərbaycanın bu mötəbər forumu ən yüksək səviyyədə təşkil etdiyi vurğulanır.

**Somalinin "YallaAfrica" nəşrində və "Shabelle" media şəbəkəsində** dərc olunmuş məqalələrdə qeyd olunur ki, bu ölkənin nümayəndə heyətinə rəhbərlik edən ictimai işlər, yenidənqurma və mənzil naziri Əyyub İsmayıl Yusif Somali hökumətinin sabitliyi və davamlı artımı gücləndirmək səylərinin bir hissəsi olaraq mənzil, torpaq idarəçiliyi, iqlim uyğunlaşması və yerli iqtisadi inkişafı birləşdirən inteqrasiya olunmuş bir strategiya həyata keçirdiyini bildirib. Həmçinin Bakıda keçirilən tədbirin qlobal, o cümlədən Afrika ölkələri üçün əhəmiyyəti də vurğulanır.

**Anqolanın "Jornal del Angola" nəşrində** qeyd olunub ki, bu ölkənin ictimai işlər, şəhərsalma və mənzil naziri Karlos Alberto Qreqorio dos Santos WUF13-də su təchizatı, sanitariya, mobillik və ətraf mühitin mühafizəsi sahələrində dayanıqlı infrastrukturun yaradılmasını urbanizasiyanın effektiv idarə olunması üçün vacib amil adlandırıb. O, WUF13-ün yüksək səviyyədə təşkilini vurğulayıb və bu tədbir zamanı qazanılan təcrübənin Afrika ölkələri üçün də faydalı olacağını bildirib.

**Bolqarıstanın BTA agentliyinin** saytında bu ölkənin Prezidenti İliyana Yotovanın WUF13-də iştirakı və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü barədə ətraflı məlumat verilib. Agentlik AZƏRTAC-a istinadla qeyd edib ki, Bolqarıstan Prezidenti hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirib. O vurğulayıb ki, Bolqarıstan bu tədbirdə dövlət başçısı, eyni zamanda bu ölkənin 10-dan artıq müxtəlif bələdiyyələrinin rəhbərləri, həmçinin Şuşa şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərinin meri səviyyəsində təmsil olunur.

**"Vestnik Kavkaza" portalı** WUF13-dən əvvəl keçirilən mətbuat konfransı haqqında məlumat verib. Qeyd olunub ki, Birləşmiş Millətlər Təşkilatının İnsan Məskunlaşması Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax forumun əhəmiyyətini qeyd edib, çünki qlobal mənzil böhranı qlobal ictimaiyyətdən koordinasiya və sürətli reaksiya tələb edir. O, bunun şəhər maliyyələşdirilməsi və idarəçiliyindəki struktur zəiflikləri əks etdirən qlobal, dünya miqyaslı bir problem olduğunu vurğulayıb.

**"World News" erməni saytı** isə "WUF13 Azərbaycanın artan beynəlxalq nüfuzunun bariz təzahürüdür" sərlövhəli məqaləsində qeyd edir ki, müasir dünyada davamlı inkişaf, ekoloji tarazlıq və innovativ idarəetmə yaxşı planlaşdırılmış şəhərsalma siyasətlərinə əsaslanır. Bu gün müstəqil Azərbaycan təkcə beynəlxalq dialoq platformaları və əsas qlobal idman və mədəni tədbirlər üçün mərkəz deyil, həm də müasir urbanizasiya tendensiyalarının formalaşdığı strateji mərkəzə çevrilib. Bu kontekstdə Bakının Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi etməsi ölkənin artan beynəlxalq nüfuzunun daha bir parlaq təzahürüdür.

**"GBJ Journal" nəşri** Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) əhəmiyyəti haqqında ekspert rəylərini, həmçinin UN-Habitatın icraçı direktoru Anaklaudia Rossbaxın fikirlərini dərc edib. Məqalədə Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi uğurlar da diqqətə çatdırılıb.

**Suriyanın rəsmi SANA agentliyinin** "Azərbaycan şəhərsalma üzrə təcrübə mübadiləsi və əməkdaşlıq məkanına çevrilib" sərlövhəli məqaləsində qeyd olunub ki, Bakıda aparılan müzakirələr və təcrübə mübadiləsi müharibədən çıxmış ölkələrin, o cümlədən Suriyanın həyata keçirdiyi bərpa və yenidənqurma işlərinin təşkili baxımından əhəmiyyətlidir.

**"Svaziland News" nəşrində** dərc olunan məqalədə Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyətinin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirakı barədə məlumat verilir. Qeyd olunur ki, Kralın Prezident İlham Əliyev ilə görüşündə bu tədbirdə 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bildirilib.

**Qambiyanın "The Point", Cənubi Afrika Respublikasının "Channel Africa", "Central News", Braziliyanın "El Termometro" nəşrləri** də Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası haqqında müfəssəl məlumatlar dərc ediblər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
19 may 2026-cı il

# DÜNYA BAKIDA TOPLAŞIB

## WUF13-ün ilk günü nazirlər görüşü, bayraq qaldırma mərasimi və assambleya sessiyaları ilə yadda qalıb

**Mayın 17-də Bakı şəhərində təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) işə başlayıb.**

WUF13-ün ilk günündə Azərbaycanın sədrliyi ilə keçirilən və yeni təşəbbüs kimi irəli sürülən Yeni Şəhərsalma Gündəliyinə həsr olunmuş nazirlər səviyyəsində keçirilən görüşdə 100-dən çox ölkənin nümayəndələri iştirak edib. Yeni Şəhərsalma Gündəliyinin 20 illik icra müddətinin orta mərhələsinə təsadüf edən bu toplantı əldə olunmuş nəticələrin nəzərdən keçirilməsi, mövcud çətinliklərin müəyyənləşdirilməsi və növbəti mərhələyə dair istiqamətlərin müəyyən edilməsi kimi mövzuları əhatə edib.







AZƏRTAC xəbər verir ki, spikerlər Azərbaycan hökumətinə göstərilən səmimi qonaqpərvərliyə, həmçinin 182 ölkədən 40 mindən artıq iştirakçını bir araya gətirən WUF13-ün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər. Eyni zamanda onlar layiqli mənzil təminatı və dayanıqlı şəhərsalma sahəsində beynəlxalq əməkdaşlığın təşviqi məqsədilə bu mühüm platformanın yaradılmasında Prezident İlham Əliyevin rəhbərliyini, eləcə də UN-Habitat və təşkilatın icraçı direktoru Anaklaudia Rossbaxın səylərini yüksək qiymətləndiriblər.

Çıxışlarda əsas vurğulanan məqamlardan biri mənzil məsələsinin ayrı-ayrılıqda deyil, digər sahələrlə əlaqəli şəkildə həll olunmasının vacibliyi olub. Spikerlər mənzil siyasətinin torpaq idarəçiliyi, infrastruktur, nəqliyyat, xidmətlər, məşğulluq, ictimai məkanlar, iqlim fəaliyyəti və yerli iqtisadi inkişafla əlaqələndirilməsinin əhəmiyyətini qeyd ediblər. Həmçinin ikinci dərəcəli şəhərlərin, kiçik yaşayış məntəqələrinin, şəhər-kənd əlaqələrinin və balanslı ərazi inkişafının dəstəklənməsini nəzərdə tutan daha inteqrə olunmuş və məkan əsaslı yanaşmalara çağırış edilib. Görüş Sədrin Xülasəsi sənədinin qəbulu ilə başa çatıb.

Spikerlər müharibə, münaqişə və fəlakətlərin şəhərlərə, mənzil fonduna, infrastruktura və əsas xidmətlərə təsirini, eləcə də bunun yaratdığı məcburi köçkünlük və humanitar problemləri diqqətə çatdırıblar. Nümayəndə heyətləri postmünaqişə dövründə yenidənqurma və bərpa proseslərinin əhəmiyyətini də vurğulayıblar. Azərbaycanın postmünaqişə bərpa təcrübəsi müsbət nümunə kimi dəyərləndirilib və oxşar vəziyyətlərdə tətbiq oluna biləcək model kimi qeyd edilib.

Bu günün ən diqqətçəkən və simvolik hadisələrindən biri Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının dövlət bayraqlarının qaldırılması mərasimi olub. Mərasimdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri və WUF13-ün milli koordinatoru Anar Quliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax iştirak ediblər.

Forumun ilk günü həmçinin fərqli mövzularda keçirilən assambleyaların birgə açılış sessiyaları ilə yadda qalıb. Sözügedən assambleya sessiyaları sırasında Qadınlar Assambleyası, Yerli və regional hökumətlərin ümumdünya Assambleyası, İcma birliklərinin və vətəndaş cəmiyyəti təşkilatlarının Assambleyası, eləcə də Biznes Assambleyası yer alıb.

Keçirilən əlavə tədbirlər sırasında BMT-nin Məskunlaşma Proqramı, Qlobal Su Operatorların Tərəfdaşlıq Alyansı (GWOPA) və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin birgə təşkil etdiyi "Global Water Operators' Partnerships Alliance" Assambleyası da yer alır. Hər iki ildən bir keçirilən GWOPA Assambleyası ilk dəfə Ümumdünya Şəhərsalma Forumu çərçivəsində təşkil olunub.

Qeyd edək ki, 17-22 may tarixlərində "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu adı altında keçirilən WUF13 tədbiri minlərlə iştirakçını, o cümlədən dövlət və hökumət başçılarını, nazirlərini, merləri, biznes nümayəndələrini, akademik dairələri və vətəndaş cəmiyyəti təmsilçilərini bir araya gətirir.

## İlham Əliyev Kasım-Jomart Tokayevi təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.**

Dövlətimizin başçısı Prezident Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, fəaliyyətində uğurlar, qardaş Qazaxıstan xalqına daim rifah və tərəqqi arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və səmimi təbriklərə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



Dövlət başçıları həmçinin mayın 15-də qədim Türküstan şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünü məmnunluqla xatırlayıb, həmin tədbirin türk dünyasında həmrəyliyin və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi baxımından önəmini qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Baş nazir Əli Əsədov WUF13-ün açılış mərasimi çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi çərçivəsində Esvatini Kralı Əlahəzrət III Msvati, Mavriki Respublikasının Prezidenti Daramber Qoxul, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Zimbabve Respublikasının Vitse-prezidenti Konstantino Çivenqa, Ukrayna Baş nazirinin müavini Oleksiy Kuleba və Slovakiya Respublikası Baş nazirinin müavini Tomaş Taraba ilə ikitərəfli görüşlər keçirib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.













## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında WUF13-ün açılış mərasimində Azərbaycanla bağlı nümayiş etdirilən videoçarx paylaşılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində Azərbaycanla bağlı nümayiş etdirilən videoçarx paylaşılıb.

## Daxili işlər naziri Vilayət Eyvazov gürcüstanlı həmkarı ilə görüşüb

**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Sulxan Tamazaşvili və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**

Mayın 18-də Sulxan Tamazaşvili və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanını da ziyarət edib, "Əbədi məşəl" kompleksinin önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını bildiriblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov gürcüstanlı həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə S.Tamazaşvilini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb, ötən illər ərzində imzalanmış sənədlərin işgüzar mühitin formalaşmasına əlverişli şərait yaratdığı, bunun informasiya mübadiləsində özünü göstərdiyi, transmilli cinayətkarlığın bütün növləri, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində səmərəli əməkdaşlığın xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyə xidmət etdiyi qeyd olunub.

Sulxan Tamazaşvili səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə mövcud sabitlikdən, Bakının dünyanın təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsinə baş çəkərək onun fəaliyyəti ilə tanış olublar.

***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

**2026-cı ilin ən mühüm beynəlxalq tədbirlərindən olan 13-cü Ümumdünya Şəhərsalma Forumu - WUF13 Bakıda öz işini davam etdirir. Mayın 17-də başlayan və mayın 22-dək keçiriləcək forum BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan ilə birgə təşkil olunur. "Hər kəs üçün yaşayış yerləri: Təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr edilən tədbir dünyanın urbanizasiya gündəmini müəyyənləşdirən ən nüfuzlu beynəlxalq platformalardan biridir.**




# Azərbaycanın dünyaya təqdim etdiyi yüksək təşkilatçılıq nümunəsi

## Qlobal çağırışların müzakirə edildiyi beynəlxalq platforma

WUF13 şəhərsalma və memarlıq məsələlərinin müzakirəsinin aparıldığı tədbir olmaqla yanaşı, sosial inkişaf, iqtisadi transformasiya, iqlim dəyişiklikləri, insan rifahı və müasir şəhər idarəçiliyi ilə bağlı qlobal çağırışların müzakirə edildiyi mühüm beynəlxalq platformadır. Dünyanın müxtəlif ölkələrindən hökumət nümayəndələri, şəhər rəhbərləri, alimlər, memarlar, investorlar, biznes təmsilçiləri və vətəndaş cəmiyyəti nümayəndələri Bakıda bir araya gələrək gələcəyin şəhərləri ilə bağlı fikir mübadiləsi aparırlar.

Bu qlobal tədbirin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq urbanizasiya müzakirələrində artan rolunun göstəricisi hesab olunur. Bu qərar ölkənin beynəlxalq əməkdaşlığa verdiyi töhfənin, etibarlı tərəfdaş kimi qazandığı nüfuzun və müasir şəhərsalma siyasətinin qlobal səviyyədə yüksək qiymətləndirilməsinin nəticəsidir. Forumda iştirak üçün 182 ölkədən 40 mindən çox şəxsin qeydiyyatdan keçməsi isə artıq WUF tarixində rekord göstərici sayılır.

Forumun əsas məkanlarından biri olan Bakı Olimpiya Stadionu ərazisinə daxil olduğumuz ilk andan etibarən burada nümunəvi və yüksək sistemli təşkilatçılıq diqqəti cəlb etdi. WUF13 zonasında təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təşkil olunub. Eyni zamanda təşkilati məsələlər elə koordinasiyalı şəkildə həyata keçirilir ki, iştirakçılar rahat və operativ şəkildə tədbir ərazisindəki istədikləri yerə çata bilirlər.

Forumun məkanına daxil olduqdan sonra onun miqyasının böyüklüyü və əzəməti daha aydın hiss edildi. Müxtəlif ölkələrin nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri vahid platformada toplaşaraq qlobal şəhərsalma gündəmini müzakirə edirdilər. Yaradılmış texniki imkanlar, məlumat mərkəzləri və istiqamətləndirici lövhələr forumun təşkilatçılığının yüksək peşəkarlıqla həyata keçirildiyini göstərirdi.

Ümumilikdə WUF13 53 hektarlıq ərazini əhatə edir. Burada plenar zallar, sərgi sahələri, media mərkəzləri, innovasiya zonaları və müxtəlif tədbir məkanları yaradılıb. Açılış və bağlanış mərasimləri üçün nəzərdə tutulan əsas zalın 6 min nəfərə qədər iştirakçı qəbul etmək imkanı var.

## Gülərüz və operativ könüllülər

Ən çox diqqətçəkən məqamlardan biri də könüllülərin fəaliyyəti idi. Forumda hər addımda gülərüz və operativ könüllülərlə qarşılaşmaq mümkündür. Onlar iştirakçılara istiqamət verir, suallarını cavablandırır və qonaqların forumdan rahat şəkildə yararlanmasına kömək edirdilər. Müxtəlif dillərdə ünsiyyət qura bilmələri isə xarici qonaqlar tərəfindən xüsusi rəğbətlə qarşılanırdı.

Azərbaycan gəncliyi bu forum vasitəsilə ölkəmizin qonaqpərvərlik ənənələrini və peşəkar insan resurslarını dünyaya nümayiş etdirir. Əslində, könüllülər artıq Azərbaycanın beynəlxalq tədbirlər simvoluna çevriliblər. Əvvəlki mötəbər tədbirlərdə olduğu kimi, WUF13-də də onların fəaliyyəti iştirakçılar tərəfindən yüksək qiymətləndirilir.

Tədbirdə medianın fəaliyyəti üçün də geniş imkanlar yaradılıb. Tədbir məkanında fəaliyyət göstərən Media Mərkəzində jurnalistlər üçün iş sahələri, canlı yayım və müsahibə otaqları, mətbuat konfransı zalı, televiziya studiyaları və xüsusi istirahət zonaları təşkil olunub. Operativ informasiya axını və koordinasiya sayəsində media nümayəndələri forumu rahat şəkildə işıqlandıra bilirdilər. Bu isə Azərbaycanın beynəlxalq media ilə işləmək sahəsində peşəkar təcrübəyə malik olduğunu göstərirdi.

## Milli-mədəni irsimizin təqdimatı

Forum məkanında yaradılan ümumi mühit də xüsusi maraq doğururdu. Ərazidə salınan istirahət zonalarının vizual və memarlıq həllərində İçərişəhərdən ilhamlanan elementlərə və Azərbaycan xalçaçılığına aid ornamentlərə yer verilib. Bu həm milli-mədəni irsin təqdimatı, həm də müasir tədbir konsepsiyasının vəhdəti baxımından xüsusi diqqət çəkir.

İştirakçılar üçün açıq hava formatında təşkil edilən WUF13 bulvarı da tədbirin maraqlı məkanlarından biridir. Bu ərazi iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən istifadəsi və şəhər atmosferini hiss etməsi üçün nəzərdə tutulub. Bulvar, eyni zamanda "Urban Expo" zonasına keçid funksiyasını daşıyır. "Urban Expo" zonasında isə müxtəlif ölkələrin pavilyonları, beynəlxalq təşkilatlar, dövlət qurumları, özəl sektor nümayəndələri, qeyri-hökumət təşkilatları və tədqiqat mərkəzləri təqdim olunur. Ümumilikdə burada 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu fəaliyyət göstərir. Bu sərgi sahələri urbanizasiya, dayanıqlı inkişaf və innovativ şəhər həlləri ilə bağlı müxtəlif təcrübələrin nümayişinə imkan yaradır.


















## Nəqliyyat xidmətləri, rəqəmsal və texnoloji imkanlar

WUF13 çərçivəsində diqqətçəkən əsas məqamlardan biri də nəqliyyat xidmətlərinin yüksək səviyyədə təşkil olunmasıdır. Foruma gediş-gəliş üçün yaradılmış marşrut sistemi iştirakçıların rahatlığını təmin edir. Nəqliyyat terminalı və parklanma-transfer funksiyalarını əhatə edən əlavə 10 hektarlıq zona ümumi əməliyyat ərazisinə inteqrasiya olunub. Burada avtobus, taksi xidmətləri, parklanma və iştirakçıların yönləndirilməsi prosesləri koordinasiyalı şəkildə həyata keçirilir.

Şəhər üzrə nəqliyyat mübadilə mərkəzləri, elektrik avtobusları, taksi xidməti və hava limanı daşımaları tədbirin ümumi nəqliyyat planına daxil edilib. Xüsusilə forum başa çatdıqdan sonra tədbir məkanından çıxışla əlaqədar yaradılmış koordinasiya peşəkar təşkilatçılığın real nümunəsidir. Minlərlə iştirakçının eyni anda tədbir məkanını tərk etməsinə baxmayaraq, ciddi sıxlıq müşahidə olunmur. Könüllülər və nəqliyyat heyəti iştirakçıları düzgün istiqamətləndirir, avtobuslar fasiləsiz fəaliyyət göstərir.

Forumda rəqəmsal və texnoloji imkanlar da diqqət mərkəzindədir. Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik şəbəkə infrastrukturu və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb. Bu texnoloji hazırlıq forumun yüksək standartlar səviyyəsində keçirilməsinə imkan yaradır.

## İnnovativ yanaşmalar və layihələr

WUF13 çərçivəsində Biznes və İnnovasiya Mərkəzi də fəaliyyət göstərir. Bu platforma urbanizasiya və mənzil təminatı sahəsində innovativ yanaşmaların təbliğinə xidmət edir. Burada müxtəlif ölkələrdən şirkətlər, startaplar, investorlar və texnologiya nümayəndələri iştirak edərək öz layihələrini təqdim edirlər. Məqsəd şəhərsalma sahəsində dövlət və özəl sektor əməkdaşlığını genişləndirmək və innovativ texnologiyaların tətbiqini sürətləndirməkdir.

"Startup Pavilion" isə gənc innovatorlar və "urban-tech" layihələri üçün xüsusi beynəlxalq platforma rolunu oynayır. Burada "ağıllı şəhər" texnologiyaları, "yaşıl enerji", rəqəmsal idarəetmə və müasir yaşayış həlləri ilə bağlı layihələr təqdim olunur. Bu təşəbbüs urbanizasiya sahəsində yeni ideyaların beynəlxalq səviyyədə tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır.

## Azərbaycanın "ağıllı şəhər" və "ağıllı kənd" layihələri

Azərbaycan WUF13 çərçivəsində özünün müasir urbanizasiya və dayanıqlı inkişaf modelini də beynəlxalq ictimaiyyətə təqdim edir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri forum iştirakçılarının diqqət mərkəzindədir. İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işləri yaşayış məntəqələrinin bərpası ilə yanaşı, müasir texnologiyaların tətbiq olunduğu, ekoloji baxımdan dayanıqlı urban məkanların qurulmasını nəzərdə tutur.

Bu layihələrdə alternativ enerji mənbələrinin istifadəsi, "ağıllı nəqliyyat" sistemləri, rəqəmsal xidmətlər və "yaşıl memarlıq" prinsipləri xüsusi yer tutur. Azərbaycan bununla postmünaqişə dövründə müasir şəhərsalma modelini beynəlxalq platformada nümayiş etdirən ölkələrdən biridir.

## Azərbaycanın "yaşıl inkişaf" siyasəti də diqqət mərkəzindədir

Forum çərçivəsində Azərbaycanın "yaşıl inkişaf" siyasəti də diqqət mərkəzində saxlanılır. COP29-a evsahibliyi etmiş ölkə kimi respublikamız urbanizasiya prosesində ekoloji balansın qorunmasını prioritet hesab edir. Şəhərlərdə karbon emissiyalarının azaldılması, "yaşıl enerji" layihələrinin genişləndirilməsi, elektrik nəqliyyat vasitələrinin təbliği və ekoloji infrastrukturun qurulması istiqamətində həyata keçirilən layihələr forum iştirakçılarına təqdim olunur.

Bu gün dünyanın diqqəti Bakıya yönəlib. Bakı isə öz növbəsində müasir infrastrukturu, yüksək təşkilatçılığı və qonaqpərvərliyi ilə beynəlxalq ictimaiyyətin nəzər mərkəzindədir. WUF13 həm də Azərbaycanın dünyaya təqdim etdiyi təşkilatçılıq modeli, idarəetmə bacarığı və beynəlxalq nüfuzunun göstəricisidir. Bu mənada WUF13 həm iştirakçıların yaddaşında, həm də Azərbaycanın beynəlxalq tədbirlər tarixində mühüm yer tutacaq.

*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Təcrübələrin paylaşılması üçün gözəl fürsət

### Sadır Japarov: "WUF13 urbanizasiya və mənzil əlçatanlığı məsələlərinin müzakirəsi üçün unikal platformadır"



"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunmuş WUF13 urbanizasiya, dayanıqlı inkişaf, iqlim dəyişikliyi və mənzil əlçatanlığı məsələlərinin müzakirəsi üçün unikal platformadır. Bu mühüm forumun ən yüksək səviyyədə təşkilinə, həmçinin səmimi qonaqpərvərliyinə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlərin sammitində Qırğız Respublikasının Prezidenti Sadır Japarov deyib. O qeyd edib ki, əlçatan, təhlükəsiz və keyfiyyətli mənzilə təminat müasir dünyanın əsas çağırışlarından biridir. Bu gün şəhərlər iqtisadi inkişafın, innovasiyaların və insan kapitalının mərkəzinə çevrilir. Eyni zamanda şəhərlər iqlim dəyişikliklərinin nəticələri, infrastruktura artan təzyiq, mənzil problemləri və təhlükəsizlik məsələləri ilə ilk üzləşən məkanlardır: "Ümid edirəm ki, forumun nəticələri şəhər inkişafının gələcəyini formalaşdıracaq və ölkələrimizin dayanıqlı rifahını təmin edəcək, qabaqcıl həllərin hazırlanması üçün möhkəm zəmin yaradacaq", - deyə Sadır Japarov vurğulayıb.

### Oljas Bektenov: "Qazaxıstanda rahat yaşayış və iş şəraitinin yaradılması dövlət siyasətinin ana xəttini təşkil edir"




"Prezident İlham Əliyevə və BMT-nin Məskunlaşma Proqramının rəhbərliyinə bu möhtəşəm Ümumdünya Şəhərsalma Forumunu mükəmməl səviyyədə təşkil etdiklərinə görə təşəkkürümü ifadə edirəm. Özündə tarixi mirası və müasir memarlığı ehtiva edən Bakı şəhərində bu tədbirin keçirilməsi heç də təsadüfi deyil".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlərin sammitində Qazaxıstanın Baş naziri Oljas Bektenov deyib: "Qazaxıstan əhalisinin 63 faizindən çoxu şəhər yerlərində yaşayır. Ona görə də Qazaxıstan üçün rahat, uyğun yaşayış və iş şəraitinin yaradılması dövlət siyasətinin ana xəttini təşkil edir. Buna görə biz insanyönümlü yanaşmadan istifadə edirik ki, bunun da əsas istiqaməti təhlükəsizlik, əlçatanlıq və digər tərəfdən ətraf mühit baxımından inklüzivlikdir", - deyə o əlavə edib.

### İrakli Kobaxidze: "WUF13-ün yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkür edirəm"



"Mənəvi, isti qonaqpərvərliyinə və olduqca önəmli qlobal tədbirlərdən biri olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkür etmək istəyirəm. Çünki bu, qlobal çağırışdır və iqlim dəyişikliyi, mənzillə bağlı olan problemlər, həmçinin sosial vəhdət məsələləri ni müzakirə etmək imkanı yaradır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) liderlər sammitində Gürcüstanın Baş naziri İrakli Kobaxidze deyib.

O qeyd edib ki, şəhər məkanlarının qorunması sabitliyin, rifahın, eyni zamanda cəmiyyətlərin və növbəti nəsillərin dayanıqlığını şərtləndirən amillərdən biridir: "Məqsəd infrastrukturu genişləndirmək və keyfiyyəti yaxşılaşdırmaqla yanaşı, eyni zamanda bunun dayanıqlı, davamlı, regional cəhətdən balanslı və vətəndaşların ehtiyacları üzərində qurulmasıdır".

### İliyana Yotova: "Prezident İlham Əliyev Bakını hər kəsin gələcəkdən bəhs etdiyi məkana çevirib"



"Mən ilk növbədə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm. O, Bakını elə bir məkana çevirib ki, burada hər kəs gələcəkdən bəhs edir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bolqarıstan Prezidenti İliyana Yotova WUF13-də liderlərin sammitində deyib. Bolqarıstan Prezidenti İliyana Yotova qeyd edib ki, problemlər eyni olanda həll yolları da eyni olmalıdır. Dünya açıq şəkildə öz biliklərini və irəli texnologiyalarını paylaşmalıdır, çünki bizim gələcəyimiz eynidir, bunu paylaşırıq. Bizim investisiyalarımız infrastrukturlara deyil, bu insanlara istiqamətlənməlidir. Texnologiyalar insan övladına xidmət etməlidir.

### Şavkat Mirziyoyev WUF13-ün qüsursuz təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib



"Bugünkü konfransın Xəzərin incisi olan gözəl Bakı şəhərində qüsursuz təşkilinə və bizə göstərilən səmimi qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Onun rəhbərliyi ilə Azərbaycan, xüsusilə Qarabağ sürətli və genişmiqyaslı inkişaf yolu keçir. Qısa müddət ərzində azad edilmiş ərazilərdə bütöv şəhərlər bərpa olunub, yeni yaşayış kompleksləri və müasir infrastruktur obyektləri inşa edilib. Bu fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Özbəkistan belə nəcib təşəbbüslərə layiqli töhfə verməyə hazırdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev WUF13-ün liderlər sammitində deyib. Şavkat Mirziyoyev bildirib ki, dünya üçün mənzil, təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar gündəliyi bu gün də aktuallığını qorumaqdadır. Təhlillərə əsasən, XXI əsrin ortalarına qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Eyni zamanda urbanizasiya bir sıra sosial problemləri daha da kəskinləşdirir. Bu gün dünyada təxminən 3 milyard insan adekvat yaşayış şəraitindən məhrum vəziyyətdədir. Onların 1 milyarddan çoxu qeyri-rəsmi yaşayış məntəqələrində və gecəqondularda yaşayır. 300 milyondan çox insanın isə, ümumiyyətlə, sığınacağı yoxdur. İqlim dəyişikliyi, qeyri-sabit beynəlxalq vəziyyət və iqtisadi böhranlar yeni qlobal miqrasiya dalğaları yaradır. Bu da əhalinin ölkələr və şəhərlər arasında yenidən bölüşdürülməsinə səbəb olur. Bir sözlə, urbanizasiya qlobal sabitlik və təhlükəsizliyə birbaşa təsir edən kritik amilə çevrilir. Bütün bunlar bizdən qətiyyətli və təxirəsalınmaz tədbirlər görməyi tələb edir.

Özbəkistan Prezidenti bugünkü tədbirin qarşılıqlı faydalı və perspektivli məsələlər üzrə birgə həllərin tapılmasına, yeni təşəbbüslərin formalaşmasına şərait yaradacağına və bu sahənin inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

### İqor Sergeyenko: "WUF13-ün mövzusu müasir dövrün ən aktual prioritetlərindən biridir"



"İlk növbədə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksəksəviyyəli təşkilinə, qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm. Bakı bu mühüm, qlobal dialoqun aparılması üçün ən ideal məkandır".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlərin sammitində Belarus Milli Assambleyasının Nümayəndələr Palatasının sədri İqor Sergeyenko deyib. O qeyd edib ki, forumun builki mövzusu müasir dövrün ən aktual prioritetlərindən biridir. Çünkü şəhərlərin planlaşdırılması, sosial infrastrukturun qurulması və ekoloji balansın qorunması kompleks yanaşma tələb edir: "WUF13-ün işinə, eləcə də bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, Bakı platforması şəhərlərimizin daha təhlükəsiz, inklüziv və nəsillərin rifah dolu gələcəyinə mühüm töhfə verəcək", - deyə İqor Sergeyenko bildirib.

### Esvatini Kralı: "WUF13-ün mövzusu dövrümüzün ən mühüm məsuliyyətlərini özündə əks etdirir"



"BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak etmək və gözəl Bakı şəhərində çıxış etmək mənim üçün böyük şərəfdir. Seçdiyimiz mövzu hər kəs üçün olduqca böyük əhəmiyyət kəsb edir. Bu mövzu dövrümüzün ən mühüm məsuliyyətlərini özündə əks etdirməklə yanaşı, birbaşa insanların həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlərin sammitində Esvatini Kralı Əlahəzrət III Msvati deyib. Onun sözlərinə görə, dünyanın müxtəlif yerlərində bir çox insanlar qeyri-adekvat yaşayış yerlərindən, iqlim böhranlarından, yoxsulluqdan və infrastrukturun tənəzzülündən əziyyət çəkirlər: "Bu problemlər regionların və ölkələrin sərhədlərini aşır, həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrə təsir edir. Yaşayış məskənləri, sadəcə, polad və beton deyil, bunlar, eyni zamanda ləyaqət, sabitlik və ümid əks etdirir. Ev güclü ailələr və icmaların özəyidir. Biz başa düşməliyik ki, güclü ev ilk növbədə bir-birini qorumaq qabiliyyəti ilə ölçülür", - deyə Esvatini Kralı bildirib.

### Mavriki Respublikasının Prezidenti: "WUF13 təcrübələrin paylaşılması üçün gözəl fürsətdir"



"Forumun mövzusu dünyanı evlə təmin etməkdir. Bu sözsüz ki, dövrümüzün ən təcili çağırışlarına tam şəkildə cavab verir. Biz yeni şəhərlər üçün gündəliyi yenidən nəzərdən keçiririk".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlər sammitində Mavriki Respublikasının Prezidenti Daramber Qoxul deyib.

Prezident bildirib ki, hazırda dünyada 3 milyard insan hələ də uyğun olmayan mənzil şəraitində yaşayır. Bu ciddi, presedentsiz humanitar təhlükədir. Sözsüz ki, bu, dayanıqlı inkişaf üçün ciddi çağırışdır. Odur ki, WUF13, sadəcə, vaxtında keçirilən bir forum deyil, eyni zamanda təcrübələrin paylaşılması, biliyin və qabaqcıl təcrübənin ötürülməsi üçün ən gözəl fürsətdir və dayanıqlı şəhərsalma və inkişaf üzrə gündəliyə sadiqdir.

### Keniya Prezidenti: "BMT-nin öz mövcudluğunu davam etdirməsi üçün islahatların aparılması mütləqdir"



"2002-ci ildə ilk Ümumdünya Şəhərsalma Forumunu Nayrobidə, Keniyada keçirildi. Keçən ay Afrika Şəhərsalma Forumunu yenidən Nayrobidə təşkil etdik. Bu gün isə biz 13-cü Ümumdünya Şəhərsalma Forumunda Bakıda, bu möhtəşəm ölkədəyik. Mən fürsətdən istifadə edərək, Prezident İlham Əliyevə bizə göstərdiyi qonaqpərvərliyə görə təşəkkür edirəm".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlər sammitində Keniyanın Prezidenti Uilliyam Samoei Ruto deyib. Keniya Prezidenti bildirib ki, bu, həqiqətən də, çox nəticəyönümlü bir tədbirdir. Çünki mənzil məsələsi demək olar ki, hər bir ölkədə mövcuddur. O qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının öz mövcudluğunu davam etdirməsi üçün islahatların aparılması və anomaliyaların aradan qaldırılması mütləqdir: "Ədalətin bərqərar olması zəruridir. BMT və konkret olaraq BMT-nin Təhlükəsizlik Şurasında reprezentativlik, təmsilçilik, demokratiya, Afrika qitəsinin hüquqları da təmin edilsin. Məhz bu şəkildə biz mövcud problemləri həll, daha yaxşı gələcəyi müəyyən edə bilərik. Bakıda bizə gələcəyin şəhərlərini dəyişmək, onları hər kəs üçün yaşamağa uyğun, dayanıqlı və dözümlü etmək üçün müzakirələr aparmaq imkanı yaradılıb".

### Liviya Prezident Şurasının Sədri: "Bakı ənənə ilə müasirliyin gözəl qarışığının nümunəsidir"



"Bu mötəbər beynəlxalq tədbirdə bizi bir araya gətirdiyi üçün Prezident İlham Əliyevə və dost Azərbaycan Respublikasına dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Bakı ənənə ilə müasirliyin, irs ilə şəhər inkişafının gözəl qarışığının və qarşılıqlı təsirinin nümunəsidir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) liderlər sammitində Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi deyib. O bildirib ki, builki sessiyanın mövzusu şəhərlərin gələcəyini yenidən düşünməyə, insanların təhlükəsiz, ləyaqətli və davamlı yaşayış hüququnun təmin edilməsinə dair praktiki əməlləri bir araya gətirmək üçün bir çağırışdır: "Bu gün qlobal miqyasda milyardlarla insanı əhatə edən yaşayış yerləri böhranının dərinləşdiyini görürük. Buna görə də yaşayış artıq dar çərçivədə məsələ deyil, o, sabitlik, inkişaf və ictimai təhlükəsizlik üçün əsas elementə çevrilib". Məhəmməd Yunis Əl-Mənfi 13-cü sessiyanın nəticələrinin hər kəs üçün daha ədalətli, davamlı və firavan bir şəhər, gələcəyə praktiki addım olmasını, bilik və texnologiya ötürülməsinə və təcrübələrin bölüşdürülməsinə yüksək önəm verilməsini arzulayıb.

### Kambocanın Baş nazirinin müavini: "Gələcək daha da ümidvericidir"



"Gözəl Bakının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına evsahibliyi etməsini yüksək qiymətləndirik".

AZƏRTAC xəbər verir ki, bu sözləri WUF13-ün liderlərin sammitində Kambocanın Baş nazirinin müavini və Torpaq İdarəetmə, Şəhərsalma və Tikinti naziri Say Sam Al deyib. O vurğulayıb ki, yaxın gələcəkdə, ümumiyyətlə, gecəqondulara və qeyri-formal məskənlərə son qoyulacağına ümid edilir: "Düşünürəm ki, gələcək daha da ümidvericidir", - deyə Kambocanın Baş nazirinin müavini bildirib.

### Nqa Kor Minq: "Mən fəaliyyətimizin mahiyyətini ifadə edən bir Azərbaycan atalar sözündən ilham alıram"



"Ev sahibi Azərbaycan bir evə sahib olmağın əsl dəyərini və əhəmiyyətini çox yaxşı anlayır. "Evdə olmaq" hissi xüsusilə dünyanın qeyri-sabit olduğu, institutların sarsıldığı və texnologiyanın cəmiyyətləri sürətlə dəyişdirdiyi dövrlərdə daha da vacib olur. Belə məqamlarda bir həqiqəti unutmamalıyıq: gələcək onu yalnız tənqid edənlərə deyil, onu quranlara məxsusdur. Bizim missiyamız isə hər kəs üçün şəhərlərin gələcəyini quran insanlar olmaqdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti Nqa Kor Minq Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılış mərasimində deyib: "Mən fəaliyyətimizin mahiyyətini ifadə edən bir Azərbaycan atalar sözündən ilham alıram: "Dama-dama göl olar". Gəlin, bu müdrikliyi ortaq məqsədimizin metaforasına çevirək. Bakı sessiyası çərçivəsində müzakirə etdiyiniz hər bir siyasət, qurduğunuz hər bir tərəfdaşlıq və götürdüyünüz hər bir öhdəlik gələcəyə ümid daşıyan bir damladır. Bu damlalar birləşdikdə isə bizi daha güclü və dayanıqlı gələcəyə aparacaq böyük bir fəaliyyət "çayı"na çevrilir. Elə bir gələcək quraq ki, heç kim və heç bir məkan diqqətdən kənarda qalmasın".

### Anaklaudia Rossbax: "İndiyədək bu xarakterli heç bir sessiya WUF13 qədər geniş qlobal auditoriyanı bir araya gətirməyib"



"Dünyanın müxtəlif icmalarından və yüksəksəviyyəli liderlərindən ibarət on minlərlə insanın Bakıda bir araya gəlməsi təsadüfi deyil. Məqsədimiz "Qeyri-müəyyənlik, qeyri-sabitlik və dağıntılar dövründə hər kəs üçün adekvat mənzili necə təmin etmək olar?" sualına cavab tapmaqdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax deyib: "Son günlər Azərbaycanın bəzi bölgələrinə təsir edən güclü yağış və tufanlara baxmayaraq, Bakıda dözümlülük, qətiyyət və ortaq məqsəd hissilə bir araya gəlmişik. Burada komanda halında işi, sürətli reaksiyanı görürük. Maraq səviyyəsi və iştirak isə burada müstəsnadır. İndiyədək bu xarakterli heç bir sessiya WUF13 qədər geniş və müxtəlif qlobal auditoriyanı bir araya gətirməyib. Bu isə mənzil və dayanıqlı şəhər inkişafının ortaq gələcəyimizin mərkəzində dayanmasını daha da yaxşı şəkildə bizə göstərir", - deyə icraçı direktor bildirib.

A.Rossbax WUF13-ə evsahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib və qeyd edib ki, WUF13 praktiki fəaliyyət, tərəfdaşlıq və investisiyalar vasitəsilə icranı sürətləndirmək üçün bir fürsətdir.

### BMT-nin Baş katibi: "Ümumdünya Şəhərsalma Forumu məqsədləri reallığa çevirmək üçün bir təkan olacaq"



"Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) salamlarımı çatdırıram. Siz qlobal böhranlar, münaqişələr, artan enerji xərcləri və bahalaşan ərzaq qiymətləri dövründə görüşürsünüz".

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş Bakıda keçirilən WUF13-ün açılış mərasimi zamanı tədbir iştirakçılarına videomüraciətində deyib. O, bugünkü gündəliyin daha az danışılan qlobal mənzil böhranına yönəldiyini vurğulayaraq əlavə edib: "Mənzil təminatı bir insan hüququdur və insan ləyaqəti üçün fundamental əhəmiyyət daşıyır. Ümumdünya Şəhərsalma Forumu həmin məqsədləri reallığa çevirmək üçün bir təkan olacaq", - deyə BMT-nin Baş katibi vurğulayıb.

### BMT Baş Assambleyasının prezidenti: "WUF13 mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək üçün imkan yaradır"



"Hər kəs üçün əlçatan, təhlükəsiz və layiqli mənzil təminatı fundamental insan hüququdur. Bu, ləyaqətin, sağlamlığın, təhlükəsizliyin və imkanların təməlidir. Lakin bu gün həmin təməl hələ də həddindən artıq çox insan üçün əlçatmaz olaraq qalır; 1,1 milyarddan çox insan hələ də qeyri-rəsmi qəsəbələrdə və ya gecəqondularda yaşayır, 300 milyondan çox insan isə evsizdir. Bunun fəsadları yalnız mənzillə məhdudlaşmır, daha geniş miqyasa yayılır. Təhlükəsiz mənzil olmadıqda sağlamlıq pisləşir, təhsil pozulur, təhlükəsizlik hissi zəifləyir, bərabərsizlik dərinləşir və icmalar iqlim şoklarına və fəlakətlərə qarşı daha aciz olurlar".

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT Baş Assambleyasının prezidenti Annalena Berbok Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılışındakı videomüraciətində deyib.

O bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası mühüm bir məqama təsadüf edir: "Bu, mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək və eyni zamanda bu işi dayanıqlı urbanizasiyanın daha geniş çağırışları ilə əlaqələndirmək üçün bir imkan yaradır. Gəlin dürüst olaq: bu miqyasda bir böhranın sadə həlli yoxdur. Daha çox ev tikmək vacibdir, lakin bu, təkbaşına kifayət etməyəcək. Mənzil təminatını infrastruktur, əsas xidmətlər, iqlimə dözümlülük, maliyyələşdirmə və inklüziv planlaşdırma ilə əlaqələndirilən sistemli yanaşmaya ehtiyac var. Belə bir yanaşma həm də geniş iştirakçılıqdan asılıdır, çünki dayanıqlı şəhər inklüzivliyini və inkişafını təkcə hökumətlər təmin edə bilməz. Bu, yerli hakimiyyət orqanlarının, icmaların, vətəndaş cəmiyyətinin, özəl sektorun, ekspertlərin, eləcə də sakinlərin özlərinin yaşadıqları şəhərlərin formalaşmasına kömək etməsini tələb edir".

### Zimbabvenin Vitse-prezidenti: "Gözəl və tarixi Bakı şəhərində səmimiyyətlə qarşılanmışıq"



"Biz gözəl və tarixi Bakı şəhərinə gəlişimizdən bəri yalnız qonaqpərvərlik görmüşük, səmimiyyətlə qarşılanmışıq. Dövlət və hökumət başçılarının 13-cü Ümumdünya Şəhərsalma Forumunda iştirakı dayanıqlı şəhər inkişafı ilə bağlı qlobal müzakirənin yüksəlişini və prioritetləşməsini nümayiş etdirir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) liderlər sammitində Zimbabve Respublikasının Vitse-prezidenti Konstantino Quveya Dominik Nyikadzino Çivenqa deyib. Onun sözlərinə görə, 13-cü Ümumdünya Şəhərsalma Forumu qlobal əməkdaşlığı inkişaf etdirməli, siyasi iradəni və praktiki strategiyaları gücləndirməlidir ki, qlobal yaşayış yerləri böhranlarının həlli yolları tapılsın: "Bu toplantıdakı kollektiv məsuliyyətimiz bəyannamələrin qəbul edilməsindən daha çox icra və ölçülə bilən irəliləyiş üçün yenilənmiş öhdəliyə çevrilməlidir. Xalqlarımız və gələcək nəsillər üçün ümidverici bir gələcəyin vədini birlikdə yerinə yetirə bilərik", - deyə Zimbabvenin Vitse-prezidenti bildirib.

*Hazırladı: İsmayıl QOCAYEV, "Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# Azərbaycan WUF13-lə növbəti dəfə tarix yazır

## Prezident İlham Əliyevin uzaqgörən strategiyası sayəsində Bakıda dünyanın şəhərsalma gündəliyi müəyyən edilir

**Müasir dünyada ekoloji tarazlığın və innovativ idarəçiliyin əsası məhz düzgün qurulmuş şəhərsalma siyasətinə söykənir. Hazırda Azərbaycan beynəlxalq dialoq platformalarının, qlobal idman və mədəniyyət layihələrinin mərkəzi olmaqla bərabər, həm də yeni urbanizasiya tendensiyalarının formalaşdığı ünvan kimi tanınır. Bu müstəvidə Bakının BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi etməsi ölkəmizin beynəlxalq nüfuzunun növbəti parlaq təzahürüdür.**

Mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək mühüm məqamlara diqqət çəkib. Qeyd edək ki, Bakının evsahibliyi etdiyi beynəlxalq tədbir artıq indidən WUF tarixində rekordlarla yadda qalır. Forumda iştirak etmək üçün 182-dən çox ölkədən 40 mindən artıq şəxs qeydiyyatdan keçib ki, bu da tədbirin tarixində rekord göstəricidir.

Prezident İlham Əliyev çıxışında buna toxunub: "Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq". BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax da deyib ki, indiyədək bu xarakterli heç bir sessiya WUF13 qədər geniş və müxtəlif qlobal auditoriyanı bir araya gətirməyib. Rossbax WUF13-ə evsahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Dövlətimizin başçısının çıxışı Azərbaycanın qlobal diplomatiya və irimiqyaslı beynəlxalq tədbirlərin idarə olunması sahəsindəki yüksək statusunu rəsmən təsdiq edir. Prezident İlham Əliyevin forumda 182 ölkədən 45 mindən artıq iştirakçının qeydiyyatdan keçməsi ilə bağlı elan etdiyi statistik göstəricilər WUF13-ün beynəlxalq miqyasda qazandığı tarixi uğurun və böyük marağın əyani sübutudur. Tədbirin miqyas baxımından COP29-la müqayisə edilməsi Azərbaycanın qısa müddət ərzində bəşəriyyəti narahat edən fərqli qlobal çağırışların müzakirə olunduğu ən mühüm siyasi, ekoloji və intellektual mərkəzə çevrildiyini bəyan edir. Eyni zamanda UN-Habitat rəhbərliyinin forumun indiyə qədərki ən geniş və çoxşaxəli qlobal auditoriyanı bir araya gətirən sessiya olduğunu vurğulaması və bu münasibətlə Azərbaycan hökumətinə rəsmi təşəkkürünü bildirməsi ölkəmizin təşkilatçılıq qabiliyyətinə və qlobal tərəfdaşlığa verdiyi töhfələrə beynəlxalq müstəvidə verilən ali qiymətin rəsmi göstəricisidir.

Prezident İlham Əliyev çıxışı zamanı vurğulayıb ki, Azərbaycan bu forumu təşkil etməklə şəhərsalmanın inkişafına sadiqliyini nümayiş etdirir: "Bu il mənim sərəncamıma əsasən, "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və forumun 13-cü sessiyasına evsahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik". Dövlətimizin başçısı vurğulayıb ki, şəhərsalma elə bir məsələdir ki, Azərbaycan dövləti gündəlik əsaslarla onun üzərində işləyir: "Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər".

Cari ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi şəhərsalma siyasətinin Azərbaycanda dövlət idarəçiliyinin ali prioritetlərindən biri olduğunu rəsmən nümayiş etdirir. Prezident İlham Əliyevin bu mühüm qlobal missiyanın Azərbaycana həvalə edilməsinə görə təşəkkürünü bildirməsi və səmərəli əməkdaşlığı vurğulaması ölkəmizin beynəlxalq təşkilatlarla tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsini göstərir. Xüsusilə uzun illər işğal altında qalmış Ağdam, Zəngilan və Xankəndi şəhərlərində üç milli forumun uğurla keçirilməsinə edilən istinad Azərbaycanın azad edilmiş ərazilərdə reallaşdırdığı irimiqyaslı postmünaqişə quruculuğu və modernləşmə modelinin beynəlxalq ictimaiyyətə birbaşa təqdimatıdır. Paytaxt Bakı ilə yanaşı, ölkənin bir çox qədim şəhərlərinin zəngin memarlıq irsinə diqqət çəkilməsi isə milli mədəni kimliyin qorunması ilə müasir urbanizasiya tendensiyalarının dövlət siyasətində bərabərhüquqlu və vəhdət şəklində idarə olunduğunu rəsmən bəyan edir.

Azərbaycan Prezidenti Bakının qədimlik və yenilik baxımından tarixi-memarlıq irsimizi qoruyub saxladığını qeyd edib: "Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən, əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir".

Prezident İlham Əliyevin vurğuladığı kimi, paytaxtımızın qədim memarlıq elementləri ilə müasir şəhərsalma standartlarını özündə birləşdirməsi ölkəmizin keçmişinə sadiqliyini və eyni zamanda gələcəyə yönəlmiş innovativ inkişaf xəttini nümayiş etdirir. Ulu babalarımızın istedadına və memarlıq irsinə edilən istinad dövlətimizin mədəni irsin toxunulmazlığına, tarixi abidələrin mühafizəsinə verdiyi ali əhəmiyyəti rəsmi səviyyədə bir daha təsdiqləyir.

Dövlətimizin başçısı Bakıda aparılan müasir şəhərsalma prosesindən də misallar gətirib: "Bakı haqqında danışsaq, bir neçə əlavə məsələni də qeyd edim. Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm".

Prezident İlham Əliyevin Bakının sənaye keçmişinə və ekoloji transformasiyasına dair gətirdiyi misallar Azərbaycanın ekoloji böhran sahələrini yaşıl və müasir zonalara çevirmək sahəsindəki qlobal uğurunun təqdimatıdır. Keçmişdə ekoloji baxımdan ağır vəziyyətdə olan "Qara şəhər", Bibiheybət və Böyükşor kimi ərazilərin son iyirmi ildə köklü şəkildə yenidən qurulması ölkəmizin ekoloji dayanıqlılıq və insan mərkəzli şəhər mühiti yaratmaq iradəsini ortaya qoyur. Konkret nümunələr yerli səviyyədə icra olunan irimiqyaslı layihələrin effektivliyini göstərməklə yanaşı, Bakının sənaye şəhərindən müasir, təmiz və yaşana bilən bir meqapolisə çevrilməsi prosesinin beynəlxalq müstəvidə nümunəvi model kimi qəbul edilməsini hədəfləyir. Dövlətimizin başçısı Bakıda həyata keçirilən Ağ şəhər və "Sea Breeze" layihələrinə də toxunub və qonaqlara həmin yerlərə baş çəkməyi tövsiyə edib.

Azərbaycanın Avropa ilə Asiya arasında yerləşdiyini vurğulayan dövlətimizin başçısı bunun bizim memarlığımızda da öz təzahürünü tapdığını qeyd edib. Prezident İlham Əliyevin Azərbaycanın Avropa ilə Asiya arasında yerləşən strateji coğrafi mövqeyini və bu xüsusiyyətin milli memarlıq üslubuna birbaşa təsirini vurğulaması ölkənin mədəniyyətlərarası körpü rolunun rəsmi şəkildə bəyan edilməsidir. Bu yanaşma Azərbaycanın qlobal dünyada özünəməxsus mədəni kimliyini qoruyaraq beynəlxalq memarlıq trendlərinə inteqrasiya etmək strategiyasının mühüm tərkib hissəsidir.

Forumun möhtəşəm təşkilinə görə, dünya liderlərinin və beynəlxalq təşkilat rəhbərlərinin Azərbaycan Prezidentinə təşəkkür ifadə etmələri və ölkəmizin fəaliyyətini yüksək dəyərləndirmələri dövlətimizin başçısının qlobal miqyasda qəbul olunan şəxsi nüfuzunun və liderlik keyfiyyətlərinin bariz təzahürüdür. Bu yüksək qiymətləndirmə Azərbaycanın təkcə irimiqyaslı qlobal tədbirlərə mükəmməl evsahibliyi etmək bacarığını deyil, həm də bəşəri problemlərin həllində irəli sürdüyü innovativ inkişaf modellərinin dünya birliyi tərəfindən həlledici və nümunəvi mexanizm kimi qəbul olunduğunu rəsmən təsdiqləyir. Beynəlxalq elitanın yekdil rəyi Azərbaycanın qlobal idarəçilik və müasir urbanizasiya siyasətində etibarlı tərəfdaş, Prezident İlham Əliyevin isə dünyada strateji təşəbbüsləri reallığa çevirən uzaqgörən lider statusunu beynəlxalq müstəvidə daha da möhkəmləndirir.

Beləliklə, WUF13 platforması çərçivəsində Bakıdan səslənən bəyanatlar, xüsusilə işğaldan azad edilmiş Ağdam, Zəngilan və Xankəndi şəhərlərində aparılan genişmiqyaslı quruculuq prosesi Azərbaycanın şəhərsalma fəlsəfəsinin reallığını əks etdirir. BMT tarixinə rekord iştirakçı sayı ilə düşən bu forum Azərbaycanın COP29-dan sonra qlobal çağırışların müzakirə olunduğu ən mühüm siyasi və intellektual mərkəz statusunu bir daha möhkəmləndirir. WUF13-ün Bakıda uğurla reallaşdırılması Azərbaycan dövlətinin bəşəri problemlərin həllində aparıcı aktor olduğunu nümayiş etdirməklə yanaşı, təhlükəsiz, dayanıqlı və inklüziv gələcəyin qurulmasına verdiyi qlobal töhfəni bütün dünyaya növbəti dəfə göstərdi.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# WUF13 Azərbaycanın beynəlxalq diplomatiyada rolunu gücləndirir

**Müasir dünyada dövlətlərin beynəlxalq nüfuzu artıq yalnız hərbi güc və ya iqtisadi göstəricilərlə müəyyən olunmur. Getdikcə daha böyük əhəmiyyət kəsb edən amil ölkələrin qlobal dialoq platformasına çevrilmək, beynəlxalq gündəliyin formalaşmasında iştirak etmək və öz inkişaf modellərini təqdim etmək bacarığıdır. Məhz bu kontekstdə BMT-nin Ümumdünya Şəhərsalma Forumu - WUF13-ün Bakıda keçirilməsi Azərbaycan üçün xüsusi strateji məna daşıyır.**



Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, COP29-un yüksək səviyyədə təşkilindən sonra Azərbaycan qlobalsəviyyəli ən iri beynəlxalq tədbirlərə evsahibliyi edə bilən dövlət statusunu daha da möhkəmləndirib. BMT-nin WUF13 forumunu məhz Bakıda keçirmək qərarı, sadəcə, təşkilati seçim deyil, bu, həm də Azərbaycanın sabit, təhlükəsiz və dinamik inkişaf edən ölkə kimi beynəlxalq etimad qazandığının, müasir dünyanın ən aktual məsələləri üzrə qlobal dialoqu təmin etmək imkanına malik olduğunun göstəricisidir. "İlk baxışda Ümumdünya Şəhərsalma Forumunun yalnız memarlıq və ya şəhərsalma məsələlərinə həsr olunduğu düşünülə bilər. Lakin bu gün urbanistika anlayışı daha geniş məzmun daşıyır. Burada şəhərlərin gələcəyindən, sosial dayanıqlılıqdan, ekologiyadan, nəqliyyat təhlükəsizliyindən, rəqəmsallaşmadan, miqrasiyadan, iqlim dəyişikliklərindən, sosial ədalətdən və postmünaqişə dövründə ərazilərin bərpasından söhbət gedir. Əslində, WUF13 gələcəyin dünyasının necə formalaşacağına dair müzakirələrin aparıldığı qlobal platformadır. Belə bir forumun Azərbaycanda keçirilməsi ölkə üçün bir neçə mühüm dəyər - siyasi, iqtisadi və geostrateji əhəmiyyət daşıyır. Əvvəla, WUF13 son iyirmi ildə Azərbaycanın keçdiyi genişmiqyaslı modernləşmə yolunun beynəlxalq təqdimatına çevriləcək. Bu müddət ərzində ölkə faktiki olaraq yenidən qurulub. Müasir nəqliyyat infrastrukturu, yeni avtomagistrallar, hava limanları, ictimai məkanlar, abadlıq layihələri, rəqəmsal həllər və regionların yenilənməsi bu gün Azərbaycanın yeni simasını formalaşdırır".

Deputat qeyd edib ki, beynəlxalq ictimaiyyətin xüsusi diqqəti işğaldan azad edilmiş ərazilərin bərpasına yönələcək. Qarabağ və Şərqi Zəngəzur hazırda müasir dünyanın ən genişmiqyaslı postmünaqişə bərpası nümunələrindən birinə çevrilib. Burada söhbət yalnız yeni binaların tikintisindən getmir. Azərbaycan, əslində, XXI əsrin yeni urbanistika modelini formalaşdırır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, "yaşıl enerji" zonalarının yaradılması, müasir rəqəmsal infrastrukturun qurulması, ekoloji standartların və innovativ texnologiyaların inteqrasiyası azad edilmiş əraziləri gələcəyin inkişaf modelinin nümayiş platformasına çevirir. WUF13 isə Azərbaycana bu təcrübəni beynəlxalq ictimaiyyətə təqdim etmək üçün unikal imkan yaradır. Digər mühüm məqam isə ondan ibarətdir ki, WUF13 Azərbaycanın beynəlxalq diplomatiyanın regional mərkəzi kimi rolunu daha da gücləndirir. Son illərdə Bakı getdikcə daha çox qlobal forumların və beynəlxalq görüşlərin keçirildiyi məkana çevrilir. Bu isə ölkənin yeni siyasi imicini formalaşdırır - Azərbaycan artıq yalnız mühüm enerji və nəqliyyat qovşağı deyil, həm də qlobal gündəliyin müzakirəsində iştirak edən dövlət kimi qəbul olunur.

S.Fətəliyeva vurğulayıb ki, forumun Azərbaycanın "yumşaq güc" imkanlarını artırması da xüsusi əhəmiyyət daşıyır: "Böyükmiqyaslı beynəlxalq tədbirlər hər zaman ölkənin, onun mədəniyyətinin, investisiya potensialının, turizm cəlbediciliyinin və beynəlxalq əməkdaşlıq imkanlarının təşviqi vasitəsinə çevrilir. Dünya ictimaiyyətinə Azərbaycan münaqişələr və ya regional qeyri-sabitlik prizmasından deyil, müasir, dinamik inkişaf edən və gələcəyə dair aydın strateji baxışa malik dövlət kimi təqdim olunacaq. Forumun iqtisadi təsiri də qiymətləndirilməlidir. WUF13 minlərlə beynəlxalq iştirakçının - BMT nümayəndələrinin, hökumət rəsmilərinin, ekspertlərin, biznes dairələrinin, memarların, investorların və beynəlxalq təşkilatların nümayəndələrinin Azərbaycana gəlməsinə imkan yaradıb. Bu isə yeni investisiya əlaqələri, işgüzar münasibətlərin genişlənməsi və ölkəmizin infrastruktur və texnoloji layihələrinə marağın artması deməkdir. Bunlarla yanaşı, WUF13-ün Azərbaycan üçün başqa bir mənası da var. Bu gün dünya ciddi çağırışlarla üzüzədir: urbanistik böhranlar, iqlim problemləri, silahlı münaqişələrin nəticələri, miqrasiya və sosial gərginliyin artması. Belə şəraitdə dayanıqlı inkişaf modeli təklif edə bilən ölkələr xüsusi beynəlxalq əhəmiyyət qazanırlar. Azərbaycan bu gün məhz belə bir modeli nümayiş etdirməyə çalışır - modernləşmənin, texnoloji inkişafın, infrastruktur yenilənməsinin, sosial dayanıqlılığın və milli kimliyin qorunmasının vəhdəti".

Deputat qeyd edib ki, WUF13-ün Bakıda keçirilməsi artıq bu təcrübənin beynəlxalq maraq doğurduğunun göstəricisidir. Bu forum Azərbaycanın yeni dünya nizamında beynəlxalq mövqeyinin təqdimatıdır. Bu, müstəqillik dövründən qısa tarixi müddət ərzində regionun ən dinamik inkişaf edən mərkəzlərindən birinə çevrilmiş dövlətin imkanlarının nümayişidir. Məhz buna görə də WUF13 Azərbaycan üçün, sadəcə, beynəlxalq tədbir deyil, ölkənin yeni qlobal rolunun mühüm elementidir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# WUF13-də Şanxay mükafatı təqdim olunacaq

**Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası keçirilir. Builki forumun mövzusu belədir: "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri". BMT-Habitat və Şanxay Xalq Hökuməti tərəfindən birgə təsis olunmuş "Şəhərlərin dayanıqlı inkişafı üzrə qlobal mükafat (Şanxay mükafatı)" da Bakıda ilk dəfə "paralel tədbir + sərgi" formatında tam şəkildə təqdim ediləcək. Bu isə dünya şəhərlərinin dayanıqlı inkişaf sahəsində əldə etdiyi praktiki nəticələri və bu istiqamətdə beynəlxalq əməkdaşlığın perspektivlərini əyani formada nümayiş etdirməyə imkan yaradacaq.**

Şəhərlərin dayanıqlı inkişafı üzrə qlobal mükafat - Şanxay mükafatı, 2022-ci ildə BMT-Habitat və Çin tərəfindən birgə təsis olunmuş beynəlxalq mükafatdır. Onun məqsədi dayanıqlı inkişaf sahəsində mühüm nailiyyətlər əldə etmiş qabaqcıl şəhərləri mükafatlandırmaq, şəhərlərarası əlaqələri, təcrübə mübadiləsini və çoxtərəfli əməkdaşlığı gücləndirmək, eləcə də getdikcə daha çox şəhəri Dayanıqlı İnkişaf Məqsədlərinin və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinə töhfə verən praktiki addımlar atmağa təşviq etməkdir.

Mayın 19-da Bakı Olimpiya Stadionunda Ümumdünya Şəhərlər Gününə həsr olunmuş tematik paralel tədbir, həmçinin Şanxay mükafatının təqdimatına dair paralel tədbir keçiriləcək. İki tədbirin mövzuları müvafiq olaraq "Xoşbəxt və təminatlı həyat: dayanıqlı şəhər gələcəyinin birgə formalaşdırılması" və "Yetərli mənzildən yaşayış üçün rahat icmalara doğru: Şanxay mükafatı laureatı olmuş şəhərlərin dayanıqlı şəhər gələcəyinin təşviqində ən yaxşı təcrübələri" kimi müəyyən olunub.

Cari il martın 17-də BMT-Habitat dördüncü Şanxay mükafatına müraciətlərin qəbuluna rəsmən start vermişdir. Materialların təqdim edilməsi üçün son tarix 2026-cı il iyunun 12-dir. Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi sahəsində yoxlanıla biləcək nəticələrə malik olan istənilən şəhər müvafiq materialları BMT-Habitatın rəsmi saytı vasitəsilə təqdim edə bilər. Qalib şəhərlərin və qısa siyahıya daxil edilmiş şəhərlərin nümayəndələri cari ildə Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbirinin keçiriləcəyi şəhərə - Fuçjouya gələcəklər. Oktyabrın 31-də keçiriləcək qlobal tədbir çərçivəsində onlara kuboklar və sertifikatlar təqdim olunacaq.




Gələcəkdə Şanxay mükafatı öz qlobal tərəfdaşlar dairəsini genişləndirməyə davam edəcək, "Bir kəmər, bir yol" təşəbbüsünün və digər qlobal təşəbbüslərin tərəfdaşı olan ölkələrin şəhərlərinə xüsusi diqqət yetiriləcək. Məqsəd dayanıqlı inkişafı konsepsiyalar müstəvisindən praktiki fəaliyyət sahəsinə keçirmək, dünya şəhərlərinin dayanıqlı inkişaf yolunda bir-birindən öyrənməsinə, qarşılıqlı şəkildə təcrübəni zənginləşdirməsinə və birlikdə irəliyə doğru hərəkət etməsinə töhfə verməkdir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# WUF13 və gələcəyin düşünən şəhərləri

**Müasir dövrdə şəhərlərin inkişafı artıq yalnız yeni binaların, yolların və digər infrastrukturun tikintisi ilə ölçülmür. XXI əsrdə şəhərlərin rəqabət qabiliyyəti həm də onların rəqəmsal imkanları, innovasiya potensialı və texnoloji hazırlıq səviyyəsi ilə müəyyənləşir.**

Bu baxımdan, BMT-nin Azərbaycanın evsahibliyi ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası son dərəcə mühüm əhəmiyyət daşıyır. Çünki bu mötəbər tədbir gələcəyin rəqəmsal şəhər modelinin müzakirə olunduğu qlobal forumdur.

WUF13-ün rəqəmsallaşma strategiyası texnologiyanın şəhər infrastrukturuna dərindən inteqrasiya olunaraq sosial-iqtisadi və ekoloji problemlərin həll edilməsini nəzərdə tutur. BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) bu prosesi "İnsan mərkəzli rəqəmsal transformasiya" adlandırır. UN-Habitat rəqəmsallaşmanı bir məqsəd deyil, vətəndaşların həyat keyfiyyətini artıran vasitə hesab edir. Rəqəmsal transformasiya rəqəmli bərabərsizliyi azaltmağa, inklüzivliyə və rəqəmsal hüquqların qorunmasına istiqamətləndirilməldir.

## Urbanizasiya prosesində yeni mərhələ

Bu gün dünya urbanizasiya prosesində yeni mərhələyə daxil olur. Əgər bir neçə il əvvələ qədər "ağıllı şəhər" anlayışı əsasən elektron xidmətlər və rəqəmsal kommunikasiya ilə əlaqələndirilirdisə, indi şəhərlərin idarə edilməsində süni intellekt, böyük data və avtomatlaşdırılmış qərar mexanizmləri əsas rol oynayır. Müasir şəhərlər artıq sadəcə yaşayış məkanı olmaqdan çıxaraq milyonlarla məlumatın emal olunduğu mürəkkəb rəqəmsal sistemə çevrilir.

Nəqliyyat axınının real vaxt rejimində idarə edilməsi, enerji sərfiyyatının optimallaşdırılması, kommunal xidmətlərin avtomatlaşdırılması, təhlükəsizlik sistemlərinin rəqəmsallaşdırılması və ekoloji monitorinqin data əsaslı aparılması inkişaf etmiş şəhərlərin əsas xüsusiyyətləri kimi nəzərə çarpır. Bu isə onu göstərir ki, gələcəyin şəhərləri beton və asfaltdan daha çox, data və texnologiyalar üzərində qurulacaq.

Məhz bu səbəbdən WUF13 çərçivəsində rəqəmsallaşma mövzusu xüsusi aktuallıq daşıyır. Forum urban inkişafın yalnız memarlıq və tikinti məsələləri ilə məhdudlaşmadığını, eyni zamanda rəqəmsal iqtisadiyyat, innovasiya və texnoloji idarəetmə ilə sıx bağlı olduğunu nümayiş etdirir.

Hazırda dünya miqyasında "XXI əsrin nefti data olacaq" tezisi getdikcə daha çox təsdiqini tapır. Şəhərlərdə formalaşan rəqəmsal məlumat bazaları artıq strateji iqtisadi resurs rolunu oynayır. Hansı şəhər datanı daha effektiv idarə edirsə, həmin şəhər investisiya, innovasiya və insan kapitalı baxımından daha üstün mövqe qazanır. Buna görə də rəqəmsallaşma artıq milli inkişaf və iqtisadi təhlükəsizlik məsələsidir.

## Rəqəmsal şəhərsalmada Azərbaycan təcrübəsi

Azərbaycan da bu istiqamətdə mühüm addımlar atır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri regionda yeni urban inkişaf modelinin formalaşdırılmasına xidmət göstərir. Burada enerji, nəqliyyat, kommunal xidmətlər və idarəetmə sistemlərinin rəqəmsal platformalar üzərində qurulması gələcəyin şəhər konsepsiyasının real nümunəsi kimi diqqət çəkir.

WUF ilə rəqəmsallaşma arasındakı əlaqə texnologiyanın bir hədəf deyil, şəhər mühitində insan həyatını yaxşılaşdıran strateji alətə çevirmək fəlsəfəsinə söykənir. WUF sessiyalarında rəqəmsallaşma yalnız mütərəqqi infrastruktur layihəsi kimi nəzərdən keçirilmir. UN-Habitat platformada özünün insan mərkəzli "ağıllı şəhər"lər proqramını irəli sürür.

Texnoloji resursların yalnız varlı təbəqələrə deyil, marginal qruplara, aztəminatlı icmalara əlçatan olması təşviq edilir. Vətəndaşların fərdi məlumatlarının təhlükəsizliyi, kibertəhlükəsizlik və şəhər idarəçiliyində şəffaflıq beynəlxalq standartlar çərçivəsində müzakirə olunur. Rəqəmsal platformalar (məsələn, mobil tətbiqlər, elektron səsvermə sistemləri) vasitəsilə sakinlərin şəhərsalma qərarlarında birbaşa iştirakını təmin edir.

WUF-un əsas gündəliklərindən biri şəhərlərin ekoloji dayanıqlığıdır. Rəqəmsallaşma bu sahədə karbon emissiyalarını ölçmək və idarə etmək üçün rəqəmsal əkizlər (Digital Twin) texnologiyasını təqdim edir. Şəhərin vurtual 3D modeli yaradılır, bu isə təbii fəlakətlərin - daşqınların, zəlzələlərin simulyasiya edilməsinə və şəhərlərin böhranlara qarşı rəqəmsal dayanıqlılığının artırılmasına şərait yaradır. Bakıda keçirilən WUF13 regional və qlobal rəqəmsal şəhərsalma təcrübələrinin nümayişi üçün mühüm mərhələdir. Forum çərçivəsində təşkil olunan xüsusi texnoloji pavilyonlar qlobal startaplara "ağıllı mənzil" təsərrüfatı, "yaşıl enerji" və proptech (əmlak texnologiyaları) sahəsindəki innovasiyalarını təqdim etmək imkanı verir.

Eyni zamanda ölkəmizdə dövlət xidmətlərinin elektronlaşdırılması, rəqəmsal ödəniş sistemlərinin genişlənməsi, innovasiya ekosisteminin inkişafı və süni intellekt texnologiyalarına artan maraq Azərbaycanın rəqəmsal transformasiya prosesinə sürətlə inteqrasiya olunduğunu göstərir. Bu baxımdan, WUF13 Azərbaycanın beynəlxalq urban inkişaf və rəqəmsal transformasiya gündəliyində mühüm yer tutur. Forum ölkəmizə yalnız böyük beynəlxalq tədbirə evsahibliyi etmək imkanı yaratmır, həm də Azərbaycanın müasir şəhərsalma, innovasiya və texnoloji inkişaf sahəsində formalaşdırdığı yanaşmaları qlobal auditoriyaya təqdim etmək fürsəti verir. Çünki gələcəyin şəhərləri artıq yalnız memarların deyil, mühəndislərin, proqramçıların, data analitiklərinin və süni intellekt mütəxəssislərinin birlikdə formalaşdırdığı yeni yaşayış modelidir. WUF13 isə məhz bu yeni dünyanın konturlarının müəyyənləşdirildiyi ən mühüm beynəlxalq platformalardandır.

## Müsbət təsirlər

WUF13 kimi qlobal platformalarda aparılan müzakirələrin səmərəsi, adətən, orta və uzunmüddətli strateji dəyişikliklər şəklində özünü göstərir. Yəni burada deyilənlər dərhal hüquqi sənədə çevrilməsə də, şəhərlərin idarə olunması və ölkələrin urban siyasətinə ciddi istiqamətverici təsir göstərir. Belə qlobal tədbirlərin ən əsas səmərəsini bir neçə istiqamətdə izah etmək olar.

Bunlardan birincisi, qlobal gündəliyin formalaşmasıdır. WUF kimi forumlarda "ağıllı şəhər"lər, rəqəmsallaşma, dayanıqlı urbanizasiya, iqlim adaptasiyası kimi mövzular prioritet olaraq müəyyənləşir. Daha sonra bu mövzular BMT sistemində regional təşkilatlarda və milli strategiyalarda əsas xəttə çevrilir. Başqa sözlə desək, forum bir növ "ideya laboratoriyası" rolunu oynayır.

Digər effekt siyasət transferi və təcrübə mübadiləsidir. Şəhərlər və ölkələr öz uğurlu modellərini təqdim edir, digərləri isə həmin təcrübələri uyğunlaşdıraraq tətbiq etməyə başlayır. Məsələn, rəqəmsal idarəetmə, "ağıllı şəhər" platformaları və şəhər data mərkəzləri kimi həllər məhz belə beynəlxalq müzakirələrdən sonra daha geniş yayılır. Burada qeyd edək ki, Zəngilanın Ağalı kəndi tamamilə "ağıllı kənd" konsepsiyası ilə qurulub. Kənddə alternativ enerji mənbələri, rəqəmsal təhsil mənbələri və məsafədən tibbi xidmət sistemləri tətbiq olunur. Ağdam və Füzuli şəhələrinin baş planları da rəqəmsal infrastruktur bünövrəsi üzərində qurulur. Məsələn, onların yeraltı kommunikasiya xətləri rəqəmsal sensorlarla təchiz edilir ki, gələcəkdə hər hansı qəza məsafədən idarəetmə mərkəzindən müəyyən olunsun.

Daha bir istiqamət investisiya və əməkdaşlıq imkanlarının yaranmasıdır. Forum çərçivəsində dövlətlər, beynəlxalq maliyyə institutları və özəl sektor arasında yeni layihələr üçün anlaşmalar formalaşır. Bu, xüsusilə şəhər infrastrukturu, rəqəmsal həllər və "yaşıl enerji" layihələrində özünü göstərir. Legitimlik və beynəlxalq tanıtım effekti də çox mühümdür. Ölkələr öz şəhərsalma və inkişaf modellərini qlobal auditoriyaya təqdim etməklə həm beynəlxalq etimad qazanır, həm də öz təcrübələrini "standart" səviyyəsinə yaxınlaşdırmaq imkanı əldə edir. Bu, xüsusilə yeni urban inkişaf modelləri tətbiq edən ölkələr üçün vacibdir.

Normativ təsir də daha uzunmüddətli səmərə kimi mühüm əhəmiyyət kəsb edir. WUF kimi platformalarda formalaşan ideyalar zamanla "şəhər necə idarə olunmalıdır" sualına qlobal cavablar yaradır. Bu da şəhərsalma standartlarının, rəqəmsal idarəetmə modellərinin və davamlı inkişaf prinsiplərinin dəyişməsinə gətirib çıxarır.

Qısaca desək, bu cür forumların səmərəsi dərhal görünən nəticələrdən çox, "istiqamət dəyişdirən təsir"dir. Onlar gələcəyin şəhərlərinin necə olacağını müəyyən edən intellektual və siyasi çərçivəni formalaşdırır.

## WUF: ölkəmizdə rəqəmsallaşma prosesi

WUF13 kimi qlobal miqyaslı bir tədbirə evsahibliyi Azərbaycanda rəqəmsallaşma proseslərinə birbaşa və dolayı kanallarla ciddi impuls verəcək. Bu təsir təkcə tədbir günləri ilə məhdudlaşmır, həm də uzunmüddətli institusional və texnoloji dəyişikliklər yaradır.

İlk növbədə, belə bir forum ölkəmizdə rəqəmsal infrastrukturun sürətlə təkmilləşdirilməsini stimullaşdırır. Beynəlxalq tədbirlər yüksəksəviyyəli bağlantı, data ötürmə gücü, kibertəhlükəsizlik və real vaxt xidmət sistemləri tələb edir. Bu isə dövlət və özəl sektorun daha güclü rəqəmsal platformalar qurmasına təkan verir. Nəticədə şəhər xidmətlərində daha dayanıqlı və inteqrasiya olunmuş sistemlər formalaşır.

Belə bir qlobal tədbirə evsahibliyi Azərbaycanın dövlət idarəçiliyində rəqəmsal transformasiyanı sürətləndirir, xüsusilə şəhər idarəetməsinin "ağıllı sistemlər" üzərində qurulmasını gündəmə gətirir. Bu, nəqliyyatın idarə olunması, kommunal xidmətlər, təhlükəsizlik və şəhər planlaşdırması kimi sahələrdə data əsaslı qərarvermə mexanizmlərinin genişlənməsinə şərait yaradır. Beləliklə, rəqəmsal idarəetmə yalnız konsepsiyaya deyil, praktiki ehtiyaca çevrilir.

WUF13 ölkəmizin beynəlxalq texnologiya və innovasiyalar sahəsində əməkdaşlıqlarını da genişləndirir. Forum çərçivəsində dünya şəhərləri, texnologiya şirkətləri və inkişaf institutları ilə əlaqələr qurulur. Bu, Azərbaycana "ağıllı şəhər", "ağıllı kənd", süni intellekt, urban data analitikası və rəqəmsal infrastruktur sahəsində qabaqcıl təcrübələrin transferini asanlaşdıracaq. Eyni zamanda yerli innovasiya ekosistemini gücləndirəcək. Belə qlobal tədbirlər startaplar, universitetlər və texnoloji şirkətlər üçün yeni imkanlar yaradır ki, bu da ölkədə rəqəmsal həllərin inkişafını və yerli texnoloji məhsulların beynəlxalq bazara çıxışını sürətləndirir. WUF13-ün Azərbaycana öz rəqəmsal inkişaf modelini qlobal auditoriyaya nümayiş etdirmək imkanı qazandırması isə həm investisiya cəlbediciliyini artıracaq, həm də Azərbaycanı regional rəqəmsal mərkəz kimi mövqeləndirəcək.

Beləliklə, WUF13-ə evsahibliyi Azərbaycanın rəqəmsallaşma prosesini üç səviyyədə gücləndirəcək: infrastrukturun təkmilləşməsi, idarəetmənin modernləşməsi və beynəlxalq inteqrasiyanın dərinləşməsi. Bunlar isə birlikdə rəqəmsal transformasiyanın dayaq sütunlarıdır.

BMT-nin bu forumu sübut edir ki, rəqəmsallaşma yalnız texnoloji yenilik deyil, həm də sosial ədalətin və ekoloji balansın qorunması mexanizmidir. Şəhərlər rəqəmsallaşdıqca idarəetmə daha şəffaf, resurslardan istifadə daha qənaətli və ən əsası şəhər mühiti insan üçün daha yaşamalı olur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



# Bakı qlobal dialoqun əsas ünvanlarından biridir

## WUF13 Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün növbəti mühüm platformadır

**Azərbaycanın beynəlxalq arenadakı nüfuzu və qlobal proseslərdəki strateji rolu Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə növbəti zirvəsinə çatıb. Bakı şəhərinin 180-dən çox ölkədən 40 mindən artıq iştirakçını qəbul etməsi, WUF tarixində mütləq rekord kimi qeydə alınıb. Bu mötəbər tədbir siyasi, iqtisadi və humanitar baxımdan Azərbaycanın dünya xəritəsindəki yerini daha da möhkəmləndirir. Bununla yanaşı, bu miqyasda toplantının yüksək səviyyədə təşkili ölkəmizin qlobal idarəetmə bacarığını əyani şəkildə gözlər önünə sərir.**

### A.VUÇİÇ: "İlham Əliyev o insanlardandır ki, ondan həmişə öyrəniləsi bir şey var"

WUF tarixində ilk dəfə məhz Bakıda proqrama liderlər sammiti seqmentinin daxil edilməsi forumun statusunu daha da yüksəldib. Bu, Bakını sadəcə şəhərsalma müzakirələrinin mərkəzinə deyil, həm də dövlətlərarası yüksəksəviyyəli siyasi dialoqlar platformasına çevirib.

WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu Azərbaycanın dünyaya təqdim etdiyi yeni nəsil şəhərsalma modelini mükəmməl şəkildə ortaya qoyur.

Forum çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər isə ölkəmizin diplomatik gücünü bir daha nümayiş etdirir. Serbiya Prezidenti Aleksandar Vuçiçin səmimi və strateji mahiyyət daşıyan açıqlamalarının fonunda da bu aydın görünür. Serbiya Prezidentinin bu günlərdə "X" platformasında və mətbuatda paylaşdığı fikirlər Azərbaycanın diplomatik nüfuzunun şəxsi münasibətlər müstəvisində nə qədər güclü olduğunu göstərir.

"Prezident Əliyev Serbiyanın böyük dostudur" deyə, - A.Vuçiç "X" platformasında yazıb.

O, azərbaycanlı həmkarı ilə görüş barədə məlumat bölüşüb: "İki ölkənin strateji tərəfdaşlığının daha da inkişaf etdirilməsi barədə danışdıq, inanıram ki, tezliklə yeni əməkdaşlıq sahələri açacağıq".

"İlham Əliyev o insanlardandır ki, ondan həmişə öyrəniləsi bir şey var. Mən onun İran və ətrafındakı vəziyyətlə bağlı təhlilini, eləcə də regiondakı və dünyadakı vəziyyətlə bağlı ümumi təhlilini diqqətlə dinlədim. Biz çox şeydə razıyıq, amma hadisələrin mərkəzində olan bir insandan xəbər alanda həmişə yeni bir şey öyrənirsən, dünyanı daha yaxşı başa düşürsən", - deyə o əlavə edib.

A.Vuçiç Azərbaycan Prezidenti İlham Əliyevlə dostluq və qardaşlıq münasibətlərinin olduğunu bildirib və əlavə edib ki, o, bütün məlumatları, bilikləri və ideyaları onunla bölüşür və bugünkü görüşdə iki ölkə arasında gələcək əməkdaşlığa dair bir çox mövzulara toxunulub.

"Biz dostuq və qardaşıq, ayda bir dəfə telefonla danışırıq və ildə üç-dörd dəfə görüşürük. Bütün məlumatlarımızı, biliklərimizi və ideyalarımızı bölüşürük. Bir-birimizi çox yaxşı başa düşürük".

Serbiya rəhbərinin Azərbaycan Prezidentini "dost və qardaş" adlandırması, iki ölkə arasındakı strateji tərəfdaşlığın sadəcə kağız üzərində deyil, real və intensiv dialoq üzərində qurulduğunu sübut edir. Gətirdiyimiz bu nümunənin özü Azərbaycanın etibarlı tərəfdaş imicinin ən yüksək səviyyədə təsdiqidir.

Həmçinin Vuçiçin Azərbaycan Prezidentinin təhlillərini "dünyanı daha yaxşı başa düşmək" üçün mühüm mənbə kimi görməsi, dövlət başçısı İlham Əliyevin qlobal liderlik keyfiyyətlərinə verilən beynəlxalq qiymətdir.

### Böyük qayıdışın təqdimatı

WUF13 həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün mühüm platformadır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərini dünya şəhərsalma elmi üçün yeni bir məktəb adlandırsaq, heç də yanılmarıq. Otuz il ərzində viran qalmış ərazilərdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, beynəlxalq mütəxəssislər tərəfindən heyranlıqla qarşılanır. Bu regionların tamamilə "yaşıl enerji" zonasına çevrilməsi Azərbaycanın qlobal iqlim hədəflərinə və ekoloji bərpaya verdiyi real töhfədir.

Böyük qayıdış proqramı çərçivəsində insanların doğma yurdlarına ən müasir şəraitdə qayıtması, postmünaqişə dövrünün unikal humanist modelidir.

Bu gün Şərqi Zəngəzur və Qarabağ həm də beynəlxalq forumların, festivalların baş tutduğu ünvan kimi tanınır. Ümumiyyətlə, təkcə paytaxt Bakının deyil, bölgələrimizin də beynəlxalq tədbirlərə evsahibliyi edəcək səviyyədə inkişafı ölkənin ümumi tərəqqisinin təzahürüdür.

COP29-un möhtəşəm uğurlarından dərhal sonra WUF13 kimi irimiqyaslı tədbirə evsahibliyi etmək Azərbaycanın həm də "sabitlik və təhlükəsizlik adası" olduğunu nümayiş etdirir.

Mayın 17-də öz işinə başlayan BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası dünya mediasının da diqqət mərkəzindədir.

Beynəlxalq media qurumlarının sessiya ilə bağlı yayımladıqları materiallarda Azərbaycanın bu mötəbər tədbirə yüksək səviyyədə evsahibliyi etdiyi vurğulanıb, tədbirin iştirakçı ölkələrin bu sahədə atdıqları addımların təqdim olunması, eləcə də əməkdaşlıqların qurulması və dərinləşdirilməsi baxımından mühüm platforma olduğu qeyd edilib.

Mötəbər tədbir münasibətilə on minlərlə xarici qonağın və turistin gəlməsi Azərbaycanın turizm potensialını artırmaqla yanaşı, ölkəmizi sülh və dialoq mərkəzi kimi dünyaya tanıdır. Qonaqların ölkəmizlə bağlı unudulmaz təəssüratları Azərbaycanın mədəni irsinin və müasir simasının ən effektiv təbliğatıdır.

Vurğulamaq yerinə düşər ki, istər siyasi, iqtisadi, mədəni, idman və digər sahələr olsun, fərqi yoxdur, ölkəmizdə tədbirlər hər zaman ideal formada keçirilməsi ilə diqqət çəkib. Azərbaycan təşkilatçılığın yüksək səviyyədə olmasından tutmuş, nümunəvi evsahibliyinə, qonaqpərvərliyə, insanlarının mehribanlığına görə qonaqlarında unudulmaz təəssüratlar yaradıb. Ölkəmiz hər bir tədbirdə həm öz mədəniyyətini, həm də yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirərək, dünyanı sülh, həmrəylik və dayanıqlı inkişaf ətrafında birləşdirmək səyləri ilə çıxış edir. Bu qlobal missiya WUF13-də də uğurla davam etdirilir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

**Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Qazaxıstanın Türküstan şəhərində keçirilən və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də iştirak etdiyi qeyri-rəsmi Zirvə görüşü diplomatik tədbirdən daha çox türk dövlətlərinin ortaq gələcək fəaliyyətinin bütün dünyaya nümayişi məzmunu daşıyırdı.**




# Siyasi həmrəylik, rəqəmsal inkişaf və ortaq sivilizasiya

Son illər beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər fonunda Türk Dövlətləri Təşkilatının (TDT) rolu və əhəmiyyəti nəzərəçarpacaq dərəcədə artmaqdadır. Avrasiyanın strateji xəritəsində yerləşən türk dövlətləri artıq yalnız ortaq tarix və mədəniyyətə deyil, həm də ortaq siyasi, iqtisadi, texnoloji və nəqliyyat maraqlarına əsaslanan yeni inteqrasiya modelini formalaşdırmaqdadırlar. Türküstandakı görüş isə bu prosesin yeni mərhələyə qədəm qoyduğunu göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında iki ölkə arasında sıx əlaqələr, prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər, eyni zamanda 4 il əvvəl imzalanmış Birgə Bəyannamə ilə münasibətlərin rəsmi müttəfiqlik səviyyəsinə yüksəldilməsi xüsusi qeyd olundu.

## Azərbaycanın yaratdığı ənənə

2024-cü ildə TDT dövlət rəhbərlərinin Şuşada keçirilmiş ilk qeyri-rəsmi Zirvə görüşü artıq ənənəyə çevrilir və bu, Azərbaycanın təşkilat daxilindəki fəal təşəbbüskar rolunu bir daha vurğulayır. Məlumdur ki, müasir beynəlxalq münasibətlər sistemində regional əməkdaşlıq platformalarının rolu sürətlə artmaqdadır. Bu baxımdan TDT-nin Zirvə görüşləri türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyası baxımından xüsusi əhəmiyyətə malikdir. Belə görüşlər dövlət başçılarının bir araya gəldiyi diplomatik tədbirlərdən daha çox ortaq strateji məqsədlərin müəyyənləşdirildiyi mühüm siyasi platforma kimi nəzərə çarpır. Dövlət başçılarının Zirvə görüşləri təşkilat daxilində koordinasiyanın güclənməsinə, ortaq layihələrin həyata keçirilməsinə, türk dövlətləri arasında qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir.

Bu görüşlərin əsas əhəmiyyətli cəhətlərindən biri siyasi həmrəyliyin gücləndirilməsidir. Qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi bir dövrdə türk dövlətlərinin ortaq mövqe nümayiş etdirməsi böyük strateji məzmun daşıyır. Zirvə görüşləri regional təhlükəsizlik, enerji, nəqliyyat, rəqəmsal inkişaf, iqtisadi əməkdaşlıq və s. kimi məsələlər üzrə vahid yanaşmanın formalaşmasına imkan yaradır. Eyni zamanda bu platformalar iqtisadi inteqrasiyanın genişlənməsinə də mühüm töhfə verir. Orta dəhliz, Zəngəzur dəhlizi, Trans-Xəzər layihələri, "Rəqəmsal İpək Yolu" və digər bu kimi təşəbbüslər türk dövlətlərini Avropa ilə Asiya arasında strateji körpüyə çevirir. Zirvə görüşlərində bu layihələrin inkişafı və koordinasiyası, adətən, əsas müzakirə mövzularından olur.

## Ortaq siyasi iradə

Belə tədbirlər türk xalqlarının ortaq tarixi və mənəvi dəyərlərinin qorunması baxımından da çox önəmlidir. Türküstan, Şuşa və digər tarixi şəhərlərdə keçirilən görüşlər türk dünyasının sivilizasiya kimliyini daha da gücləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, XXI əsr türk əsri olmalıdır, bu məqsədə çatmaq üçün Zirvə görüşləri ortaq siyasi iradənin formalaşdığı əsas platforma rolunu oynayır. "Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir", - deyə Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında xüsusi vurğuladı.

Növbəti Zirvə görüşünün Türküstanda təşkili təsadüfi deyildi. Bu şəhər türk-islam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır. Dövlət başçıları proqram çərçivəsində Türküstandakı "Həzrət Sultan" Muzey-Qoruğu ilə tanış oldular, bütün türk-islam dünyasının mənəvi simvollarından sayılan böyük sufi mütəfəkkiri Xoca Əhməd Yasəvinin məqbərəsini ziyarət etdilər. Bütün bunlar TDT dövlət başçılarının zirvə görüşünə maraq göstərən hər kəsə türk xalqlarının zəngin mədəni irsini, türk sivilizasiyasının minillik tarixini bir daha xatırlatdı. Bu ziyarətlər liderlərin siyasi xarakterli görüşünə həm də mühüm ideoloji və mənəvi çalarlar qatırdı. Çünki türk dövlətlərinin əməkdaşlığı yalnız iqtisadi və geosiyasi maraqlarla məhdudlaşmır, bu birlik ortaq tarix, mədəniyyət və sivilizasiya yaddaşı üzərində formalaşır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında xüsusi vurğuladı ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər məhz Türküstan olub. Bu fakt həm simvolik, həm də siyasi baxımdan diqqəti çəkir. Şuşa və Türküstan türk dünyasının iki mühüm mədəni mərkəzidir. Bu şəhərlərin qardaşlaşması Azərbaycanın türk dünyasına inteqrasiya siyasətinin mühüm elementlərindən biri kimi qiymətləndirilə bilər. Dövlətimizin başçısının "Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır" fikri isə türk dövlətləri arasında münasibətlərin yalnız dövlətlərarası əlaqələrdən ibarət olmadığını, daha dərin sivilizasiya əsaslarına söykəndiyini göstərir.

Azərbaycan Prezidentinin də vurğuladığı kimi, bu gün Türk Dövlətləri Təşkilatının qlobal proseslərdə rolu və mövqeyi güclənir. Həqiqətən, son illər TDT tədricən regional əməkdaşlıq platformasından mühüm aparıcı qüvvəyə, geosiyasi nüfuz dairəsinə çevrilməkdədir. Türk dövlətləri enerji resursları, nəqliyyat marşrutları, geniş bazar imkanları və strateji coğrafi mövqeləri ilə Avrasiyanın əsas güc mərkəzlərindən birini formalaşdırmaq potensialına malikdirlər. Xüsusilə Orta dəhliz layihəsi bu inteqrasiyanın iqtisadi əsasını təşkil edir. Azərbaycan isə burada əsas logistik və nəqliyyat qovşaqlarından biridir. Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, Zəngəzur dəhlizi gələcəkdə Orta dəhlizin mühüm seqmentlərindən birinə çevriləcək. Bu isə təkcə Azərbaycanın deyil, bütövlükdə türk dünyasının Avropa ilə Asiya arasında əsas tranzit məkanlarından biri statusu qazanması deməkdir.

## Yeni prioritetlər - rəqəmsal transformasiya və süni intellekt

Türküstan Zirvəsinin əsas xüsusiyyətlərindən biri də rəqəmsal inkişaf və süni intellekt mövzusunun ön plana çıxması idi. Prezident İlham Əliyev çıxışında bəyan etdi ki, dünya yeni texnoloji inkişaf mərhələsinə qədəm qoyur və türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

Azərbaycanın son illər rəqəmsal transformasiya istiqamətində həyata keçirdiyi layihələr bu baxımdan xüsusi diqqət çəkir. Rəqəmsal İnkişaf Şurasının, Milli Süni İntellekt Mərkəzinin və Süni İntellekt Akademiyasının yaradılması ölkənin innovasiya əsaslı iqtisadi modelə keçid strategiyasının mühüm elementləridir. "Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır", - deyə dövlətimizin başçısı vurğuladı.

Ölkəmizdə sabit genişzolaqlı internetin əhatə dairəsi artıq 100 faizə çatdırılıb və dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən təqdim olunması istiqamətində işlər davam edir. Bu kontekstdə Türküstanda "GovTech" rəqəmsal həllərinin təqdimatı və süni intellekt sahəsində əməkdaşlıq məsələlərinin müzakirəsi xüsusi aktuallıq daşıyırdı. Türk dövlətləri arasında texnoloji əməkdaşlığın gücləndirilməsi gələcəkdə ortaq rəqəmsal məkanın formalaşmasına gətirib çıxara bilər.

## "Rəqəmsal İpək Yolu" və yeni kommunikasiya xəritəsi

Azərbaycan Prezidentinin çıxışında "Rəqəmsal İpək Yolu" layihəsi ilə bağlı diqqətə çatdırılan məqam da son dərəcə mühümdür. Azərbaycanla Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin istifadəyə verilməsi Avropa ilə Asiya arasında rəqəmsal əlaqələrin genişlənməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu layihə türk dövlətlərinin yalnız fiziki nəqliyyat marşrutlarında deyil, həm də rəqəmsal kommunikasiya sistemlərində əsas tranzit və texnoloji mərkəzlərdən birinə çevrilmək niyyətini göstərir.

Türküstanda Türk Sivilizasiyası Mərkəzinin təməlqoyma mərasimi də xüsusi diqqət çəkən hadisələrdən biri oldu. Layihənin əsas məqsədi türk xalqlarının zəngin tarixi, dövlətçilik ənənələri və mənəvi irsini müasir formatda təqdim etməkdir. Bu təşəbbüs göstərir ki, türk dövlətləri artıq ortaq kimlik və sivilizasiya konsepsiyasını beynəlxalq miqyasda daha sistemli şəkildə tanıtmağa çalışırlar. Belə layihələr gələcəkdə türk dünyasının yumşaq güc potensialını da artırır.

Prezident İlham Əliyev mayın 17-dən işə başlamış BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqunun təşkil ediləcəyini, həmçinin türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən türk dünyası həftəsinin iyunda Bakıda keçiriləcəyini diqqətə çatdırdı. Əmin olduğunu bildirdi ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.

Azərbaycanın irəli sürdüyü bütün bu təşəbbüslər, həyata keçirdiyi layihələr ölkəmizin türk dünyasının inteqrasiyasında aparıcı qüvvə olduğunu göstərir. Türküstan Zirvəsi, Azərbaycan lideri İlham Əliyevin bu görüşdəki çıxışı zamanı səsləndirdiyi məqamlar bir daha nümayiş etdirdi ki, türk dövlətləri artıq ortaq keçmişdən ortaq gələcəyə doğru əzmlə irəliləməkdədirlər. Bu gələcəyin əsas sütunları isə siyasi həmrəylik, iqtisadi inteqrasiya, rəqəmsal inkişaf və ortaq sivilizasiya kimliyi üzərində qurulur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# TDT Avrasiya məkanında siyasi güc mərkəzinə çevrilib

**Türk Dövlətləri Təşkilatının Qazaxıstanın Türküstan şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşü zamanı Prezident İlham Əliyevin çıxışında söylədiyi fikirlər bir daha təsdiq etdi ki, türk dünyasının inteqrasiyası birliyinin yaradılması ideyasının müəllifi məhz Azərbaycan olub. Bu gün dünyada baş verən münaqişə və müharibələr, enerji resursları savaşı yeni dünya düzəninin yaranmasına səbəb olub. Bu cür mürəkkəb və gərgin geosiyasi şəraitdə TDT yalnız iqtisadi, humanitar bir platforma deyil, eyni zamanda Avrasiya məkanında siyasi güc mərkəzinə çevrilib.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva "Azərbaycan" qəzetinə açıqlamasında vurğulayıb ki, artıq ənənəyə çevrilmiş TDT-nin qeyri-rəsmi Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı Prezident İlham Əliyevdir. 2024-cü ildə ilk görüşün Şuşa şəhərində baş tutduğunu xatırladan ekspert bildirib ki, Şuşada Qarabağ Bəyannaməsinin imzalanması türk dövlətlərinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin, regionda yaratdığı reallıqları dəstəklədiyinin nümunəsidir. "Sözsüz ki, istər rəsmi, istərsə də qeyri-rəsmi Zirvə görüşləri təşkilatın daha da güclənməsinə, əlaqələrin genişlənməsinə xidmət edir. Budəfəki qeyri-rəsmi Zirvə görüşünün Qazaxıstanın Türküstan şəhərində keçirilməsi də təsadüfi deyil. Türküstan türk dünyasının sivilizasiyasının mənəvi paytaxtı hesab olunur. Türküstanla Şuşanın qardaşlaşmış şəhər olması türk xalqlarının ortaq tarixə, mədəniyyətə, eyni soykökə bağlılığını da nümayiş etdirir. Azərbaycan türk dünyasını coğrafi cəhətdən də bir-birinə bağlayan strateji mərkəzdir. Cənab İlham Əliyevin Azərbaycanda çoxşaxəli nəqliyyat-logistika layihələrini reallaşdırması nəticəsində Orta dəhlizin əsas seqmenti olan Zəngəzur dəhlizi açılacaq ki, bu da Mərkəzi Asiyanın Türkiyə ilə bağlantısını yaradacaq. Zəngəzur dəhlizi, həmçinin Çin-Mərkəzi Asiya-Türkiyə xəttini Avropa ilə birləşdirən mühüm nəqliyyat marşrutu olacaq. Şübhəsiz ki, burada Azərbaycan dövlətinin rolu əvəzolunmazdır", - deyə o bildirib.

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayda türk dünyasının inteqrasiyasının təməli qoyulduğunu xatırladan K.Əliyeva diqqətə çatdırıb ki, bu il Bakıda qurultayın 100 illiyinə həsr olunmuş tədbir keçiriləcək. Türkdilli ölkələrin ortaq əlifbasının yaradılması haqqında qərar tarixi əhəmiyyət kəsb edir. Bu məsələdə də Azərbaycan lider dövlət kimi çıxış edir. Türk Dünyası Ortaq Əlifba Komissiyasının 2024-cü ildə Bakıda keçirilməsi sübut edir ki, bu istiqamətdə də Azərbaycanın atdığı addım əvəzsizdir. Ortaq əlifba vahid informasiya və kommunikasiya sisteminə, mədəni və təhsil infrastrukturuna keçidə böyük imkanlar yaradacaq.

Qeyri-rəsmi Zirvə görüşündə "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunun xüsusi diqqət çəkdiyini deyən ekspert bildirib ki, bu mövzunun ciddi şəkildə müzakirə olunması TDT-nin dünya texnoloji və süni intellekt yarışmasında öndə gedən təşkilata çevrilməyi hədəf aldığını deməyə əsas verir: "Müasir dünyada dövlətlərin gücü siyasi, iqtisadi, hərbi sahələrin yüksəlişi ilə yanaşı, rəqəmsal və süni intellektin inkişaf etdirilməsi ilə də ölçülür. Bu sahədə də Azərbaycan TDT-də öndə gedir. Son illər ölkəmizdə rəqəmsal hökumət sisteminin, elektron xidmətlərin, eləcə də Bakıda Süni İntellekt Akademiyasının yaradılması ölkəmizdə bu istiqamətdə olduqca ciddi addımların atıldığından xəbər verir. Rəqəmsal və süni intellekt sahəsində birgə əməkdaşlıq TDT-yə beynəlxalq aləmdə böyük nüfuz qazandıracaq. Görülən işlər ondan xəbər verir ki, Türk Dövlətləri Təşkilatı əsrimizin ən güclü və qüdrətli təşkilatına çeviriləcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Okyay SADIKOĞLU:* "Türk birliyinə inanan və onu dəstəkləyənlər olaraq Azərbaycanın bu istiqamətdə təşəbbüslərini təqdir edirik"

"Dayanıqlı inkişaf yalnız iqtisadi artımla deyil, eyni zamanda mədəni kimliyin qorunması, ətraf mühitin mühafizəsi və şəhərlərin ruhunun gələcək nəsillərə ötürülməsi ilə mümkündür. Turizm şəhərləri bir ölkənin dünyaya açılan vitrini hesab olunur. Buna görə də şəhərlərin plansız böyüməsi, təbii mühitin pozulması və mədəni irsin zədələnməsi yalnız bu günə deyil, gələcəyə də mənfi təsir edir. Xüsusilə Aralıq dənizinin mühüm mərkəzlərindən biri olan Şimali Kiprdə biz dayanıqlı turizm anlayışına hər gün daha çox önəm veririk. Tarixi şəhərlərin qorunması, yerli istehsalın dəstəklənməsi, ekoloji şəhərsalma siyasətləri, təbii ərazilərin mühafizəsi və yerli əhalinin inkişaf prosesinə aktiv iştirakı artıq seçim deyil, zərurətdir.

Bu məqamda vətəndaş cəmiyyəti təşkilatlarının rolu son dərəcə böyükdür. Çünki vətəndaş cəmiyyəti xalqla idarəetmə arasında körpü quran, ictimai şüur formalaşdıran və ortaq düşüncəni inkişaf etdirən ən mühüm qüvvələrdən biridir. Xüsusilə turistik şəhərlərdə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları mədəni irsin qorunması, ekoloji şüurun artırılması və sosial həmrəyliyin gücləndirilməsi sahəsində mühüm məsuliyyət daşıyırlar".



Bunu AZƏRTAC-a açıqlaması zamanı Şimali Kiprin Təbliği Platformasının prezidenti Okyay Sadıkoğlu deyib.

O.Sadıkoğlunun sözlərinə görə, Bakı bu gün müasir şəhərsalma ilə tarixi irsi bir arada yaşada bilən mühüm nümunələrdən biridir. Şəhərin tarixi toxuması qorunarkən müasir infrastruktur yatırımlarının həyata keçirilməsi dayanıqlı inkişaf baxımından diqqətəlayiq bir model yaradır.

"Buna görə də Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin II Həmrəylik Forumunun və bu çərçivədə panel iclasların təşkilinin son dərəcə əhəmiyyətli olduğuna inanıram. Türk dünyasının şəhərləri arasında qurulacaq mədəni, iqtisadi və sosial əməkdaşlıqlar gələcəkdə daha güclü ortaq bir vizyonun formalaşmasına töhfə verəcək. Şimali Kipr Türk Cümhuriyyəti olaraq biz də bu ortaq vizyonun bir hissəsi olmaqdan qürur duyuruq. Türk dünyasının ürəyi olan gözəl Bakıda bizi bir araya gətirən bu mənalı tədbirin təşkilində əməyi keçən hər kəsə ən səmimi təşəkkürümü bildirirəm. Qardaş Azərbaycanda, xüsusilə də tarixi, mədəniyyəti və müasir şəhərsalma anlayışı ilə nümunə olan Bakı şəhərində olmaqdan böyük məmnunluq hissi duyuram. Azərbaycan dövlətinin və xalqının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dostluq, səmimiyyət və qardaşlıq bizim üçün son dərəcə qiymətlidir. Bu gün burada yalnız şəhərlərin gələcəyini deyil, eyni zamanda türk dünyasının ortaq gələcəyini də müzakirə etdik. Toplantımızın türk dünyası üçün xeyirli nəticələr verəcəyinə inanıram.

İyun ayında Bakıda keçiriləcək I Türkoloji Qurultayın 100 illiyinə həsr olunan "Türk dünyası həftəsi" də son dərəcə mühüm bir tədbir olacaq. Biz türk birliyinə inanan və onu dəstəkləyənlər olaraq Azərbaycan dövlətinin bu istiqamətdə təşəbbüslərini təqdir edir, türk dövlətləri arasında əlaqələrin dərinləşməsinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk", - deyə Okyay Sadıkoğlu vurğulayıb.

# *Ersin GÜZEL:* "Türk dünyasının bir-birindən başqa dayağı yoxdur"

**"Türk dünyasının bir-birindən başqa dayağı yoxdur və türk xalqları yalnız birlik və qarşılıqlı dəstək sayəsində mövcud çağırışların öhdəsindən gələ bilər".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Dünya Türk Gəncləri Liqasının (WLTC) prezidenti Ersin Güzel Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının II Əməkdaşlıq Forumunda çıxışı zamanı səsləndirib.

O bildirib ki, Prezident İlham Əliyevin türk dünyasının birliyi ilə bağlı mesajları bu gün də aktuallığını qoruyur.

"Prezident İlham Əliyevin vurğuladığı kimi, ya bir-birimizə dəstək olaraq çətinliklərdən birlikdə çıxacağıq, ya da zəifləyəcəyik. Lakin türk dünyasının məhv olmaq kimi bir niyyəti yoxdur. Biz bunu Malazgirddə, Çanaqqalada, Kiprdə və Qarabağda bütün dünyaya sübut etmişik", - deyə Ersin Güzel bildirib.

O qeyd edib ki, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrlə yanaşı, təşkilata daxil olmayan türk topluluqları da daim diqqət mərkəzində saxlanılmalıdır.

# *Banu NURQAZİYEVA:* "Türk dünyasını ortaq dəyərlər və həmrəylik birləşdirir"

**"Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi hələ min il əvvəl bütün xalqların müdriklik və xeyirxahlıq qarşısında bərabər olduğunu qeyd edib. Bu gün də müdriklik və xeyirxahlıq xalqları birləşdirən əsas dəyərlərdən biri olaraq qalır".**

AZƏRTAC xəbər verir ki, bunu Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının II Əməkdaşlıq Forumunda çıxış edən Qazaxıstan Vətəndaş Alyansının prezidenti Banu Nurqaziyeva bildirib.

Onun sözlərinə görə, dünya hazırda mürəkkəb dövrdən keçir, qlobal dəyişikliklər və çağırışlarla üz-üzədir.

"İqlim dəyişiklikləri, humanitar böhranlar, əmək bazarının transformasiyası və rəqəmsal texnologiyaların sürətli inkişafı artıq abstrakt proseslər deyil, hər bir insanın həyatına təsir edən reallıqdır. Belə şəraitdə vətəndaş cəmiyyətinin rolu xüsusi əhəmiyyət daşıyır. Qeyri-hökumət təşkilatları sadəcə strukturlar deyil, insanlardan ibarət canlı platformalardır. Onlar başqasının ağrısına biganə qalmayan, yardıma ehtiyacı olan insanların yanında olan şəxslərdir. Bu, vəzifə borcundan deyil, qəlbin çağırışı ilə fəaliyyət göstərən könüllülərdir.



Türk xalqları əsrlər boyu həmrəylik və qarşılıqlı dəstək ənənələrini qoruyub saxlayıblar. Bizim xalqlarımız sadə, lakin dərin məna daşıyan bir hikməti nəsildən-nəslə ötürüblər: harada birlik və razılıq varsa, orada rifah var. Türk dünyası tarixən yalnız ortaq keçmişlə deyil, eyni zamanda ortaq dəyərlərlə birləşib. Böyüklərə hörmət, yaxınlara qayğı, ənənələrə sədaqət və gələcək nəsillər qarşısında məsuliyyət hissi bizi birləşdirən əsas prinsiplərdir", - deyə Qazaxıstan Vətəndaş Alyansının prezidenti bildirib.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Azərbaycan-Bolqarıstan:

## "Həmrəylik Halqası" ilə genişlənən tərəfdaşlıq

**Bolqarıstan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında həmin respublikanın Prezidenti İliyana Yotova və 10-dan artıq müxtəlif bələdiyyələrinin rəhbərləri, həmçinin Şuşa şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərinin meri səviyyəsində təmsil olunur. Mayın 17-də Prezident İlham Əliyev ali qonaq - Bolqarıstanın Prezidenti ilə görüşüb.**



Bolqarıstanın dövlət başçısı İliyana Yotova hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş bu mühüm tədbirin Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirib. Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Bu xüsusda "Həmrəylik Halqası" (STRING) layihəsinin önəmi qeyd edilib. Ölkələrimiz arasında səmərəli əməkdaşlığın qarşılıqlı hörmət və etimad əsasında möhkəmləndiyi vurğulanıb, enerji, həmçinin elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan və Bolqarıstan arasında iqtisadi əlaqələr əsasən enerji, ticarət, nəqliyyat, kənd təsərrüfatı və turizm sahələrini əhatə edir. Nəqliyyat və tranzit sahəsində ölkələrimiz Qara dəniz hövzəsi imkanlarından istifadə etməklə əlaqələrini yükdaşımaların həcmini artırmağa və yeni nəqliyyat dəhlizləri yaratmağa çalışır. Kənd təsərrüfatı məhsullarının mübadiləsi, əczaçılıq sənayesində birgə müəssisələrin qurulması və innovativ texnologiyaların tətbiqi istiqamətində addımlar atılır. İki ölkənin Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyası iş adamları üçün əlverişli şərait yaradaraq qeyri-neft sektoru üzrə ticarət dövriyyəsini artırmağı hədəfləyir.

İki ölkə arasında strateji tərəfdaşlıq xüsusilə Avropanın enerji təhlükəsizliyinə verilən töhfələr sayəsində dinamik şəkildə inkişaf edir. Başqa sözlə, energetika sektoru iqtisadi əlaqələrin özəyini təşkil edir. Azərbaycan təbii qazının (xüsusilə Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru - IGB vasitəsilə) Bolqarıstana nəqli bu ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır.

Xatırladaq ki, IGB 2022-ci il oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində açılıb və Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Enerji əməkdaşlığında "Həmrəylik Halqası" layihəsi xüsusi önəm kəsb edir. Bu, Azərbaycan təbii qazının mövcud boru kəmərləri vasitəsilə Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyaya nəqlini genişləndirməyi hədəfləyən strateji enerji təşəbbüsüdür. İlkin mərhələdə ildə 5 milyard kubmetr qazın tədarükü planlaşdırılır ki, bu da Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsinə mühüm töhfə verir.

Layihənin əsas xüsusiyyətləri nədən ibarətdir? Burada marşrut Azərbaycan qazının Türkiyə, Bolqarıstan və Rumıniya üzərindən Mərkəzi və Cənub-Şərqi Avropaya ötürülməsini nəzərdə tutur. Beləliklə, layihə iştirakçı tərəflərin - Azərbaycan, Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya və Türkiyə arasında əməkdaşlığa əsaslanır.

Məqsəd isə mövcud interkonnektorların (boru birləşmələrinin) potensialından istifadə edərək "Cənub qaz dəhlizi"nin ötürücülük qabiliyyətini artırmaq və Avropanın təbii qaza olan tələbatını qarşılamaqdır.

Azərbaycan-Bolqarıstan arasında "yaşıl enerji" əməkdaşlıq və tərəfdaşlığının da perspektivləri böyükdür. Bir il əvvəl Bolqarıstan hökuməti Bolqarıstan, Azərbaycan, Gürcüstan və Türkiyənin enerji nazirlikləri arasında "yaşıl enerji"nin ötürülməsi və ticarəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun layihəsini təsdiqləyib. Memorandumun tərəfləri birgə "yaşıl enerji" layihələrini təşviq etmək, lazımi infrastruktur qurmaq, bilik və texnologiya mübadiləsini sürətləndirmək və qarşılıqlı faydalı təşəbbüsləri təşviq etmək barədə razılığa gəliblər.

Dörd ölkənin enerji nazirlikləri sistemlər arasında əlaqəni təkmilləşdirmək imkanlarının araşdırılması, elektrik enerjisinin ötürülməsi və ticarət imkanlarının genişləndirilməsi üçün birgə investisiya layihələrinin həyata keçirilməsində dövlət və özəl sektor qurumları arasında daha sıx əlaqələri asanlaşdıracaq. Memorandumda enerji infrastrukturunun təkmilləşdirilməsi və bərpaolunan enerjidən istifadənin artırılması nəzərdə tutulur. Sənəd üç il müddətinə bağlanılıb və tərəflərdən hər hansı biri onu ləğv etməyi qərara almazsa, yenidən növbəti üç il üçün qüvvədə olacaq.

Göründüyü kimi, Bolqarıstan Azərbaycanın "yaşıl enerji" layihələrində əsasən transmilli enerji dəhlizləri, birgə müəssisələr və elektrik enerjisinin idxalı və tranziti vasitəsilə iştirak edir. Bu əməkdaşlıq bir neçə istiqamətləri əhatə edir. Avropaya "yaşıl elektrik enerji"sinin ötürülməsini nəzərdə tutan dəhliz layihəsinin əsas tərəflərindən biri də məhz Bolqarıstandır. Bolqarıstan hökuməti Azərbaycandan Avropaya "yaşıl enerji"nin təchizatı üzrə birgə müəssisənin yaradılması təşəbbüslərinə və sazişlərə qoşulub.

Bu ölkə özünün inkişaf etmiş elektrik ötürmə sistemindən istifadə etməklə, "yaşıl enerji"nin Qara dənizdən keçərək digər Avropa ölkələrinə ötürülməsində həm alıcı, həm də mühüm tranzit rolunu oynayır.

İki ölkə arasında təkcə enerji ticarəti deyil, həm də universitetlər və özəl sektor səviyyəsində bərpaolunan enerji, nüvə texnologiyaları, "yaşıl enerji" təchizatı zənciri və enerji təhlükəsizliyi sahələrində elmi-texniki əməkdaşlıq həyata keçirilir.

Ölkələrin enerji nazirlikləri arasında bu məsələlərin müzakirəsi və layihələrin icrası Azərbaycanın Energetika Nazirliyi və Bolqarıstanın Energetika Nazirliyi vasitəsilə strateji tərəfdaşlıq çərçivəsində davam etdirilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Yaddaşın və tarixin keşikçisi

**Tarix boyu baş verən mühüm hadisələrin, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin, xalqın milli-mənəvi sərvətlərinin qorunması cəmiyyət üçün həmişə böyük əhəmiyyət daşıyıb. Muzeylər bu missiyanı yerinə yetirərək keçmişlə gələcək arasında mənəvi körpü rolunu oynayır.**



Muzeylər tarixin ən dəqiq salnaməçiləridir. Onlar keçmişin izlərini qoruyaraq gələcək nəsillərə çatdırırlar. Hər bir eksponat müəyyən bir dövrün mənzərəsini, insanların həyat tərzini, mədəniyyətini, dünyagörüşünü, düşüncəsini özündə yaşadır. Muzeylərə daxil olan ziyarətçilər tarixlə üz-üzə dayanır, xalqın keçmişinə və mənəvi irsinə daha dərindən bələd olurlar.

Qədim dövrlərdən bu günə qədər müxtəlif xalqlar özlərinə məxsus maddi və mənəvi sərvətləri toplamaq, qorumaq və nümayiş etdirmək üçün xüsusi məkanlar yaradıblar. Mənbələrdən müasir muzeylərin ilkin nümunələrinin eramızdan əvvəl III əsrdə Qədim Roma və Yunanıstanda, XII-XIII əsrlərdə Çin, XVI əsrdə Kritdə meydana çıxdığı məlumdur. Həmin dövrlərdə qiymətli sənət əsərləri, nadir əşyalar və mühüm sənədlər əsasən məbədlərdə, saraylarda və şəxsi kolleksiyalarda saxlanılırdı.

Azərbaycan ərazisində mövcud olmuş Atropatena və Albaniya dövlətlərinin sarayları da bu baxımdan diqqətçəkən məkanlardan hesab olunur. Erkən və Orta əsrlərdə isə hakim sülalələrin kolleksiyaçılığa maraq göstərməsi nəticəsində qiymətli əşyalar xəzinələrdə və saray kitabxanalarında qorunurdu. Bu ənənə sonralar muzeyçilik fəaliyyətinin formalaşmasına zəmin yaratdı.

Dünyanın müxtəlif ölkələrində yerləşən məşhur muzeylər bəşəriyyətin ortaq mədəni sərvətinin qorunmasına xidmət edir. Vaşinqtondakı Milli İncəsənət Qaleriyası, Parisdəki Luvr Muzeyi, Venesiya Akademiya Qaleriyası, Drezden Şəkil Qaleriyası, Moskvanın Tretyakov Qaleriyası və Sankt-Peterburqdakı Ermitaj bu baxımdan dünyanın ən tanınmış mədəniyyət mərkəzləri sırasında yer alır.

Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən muzey işinin təşkilinə diqqət yenidən güclənməyə başlayıb. İlk milli muzeyin təməli isə 1919-cu ildə - Xalq Cümhuriyyətinin dövründə qoyulub. Həmin il dekabrın 7-də cümhuriyyət parlamentinin fəaliyyətinin birilliyi münasibətilə Bakıda təşkil olunan muzey "İstiqlal Muzeyi" adlandırılıb. Bu muzey 1920-ci ildən Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyətini davam etdirib.

1938-ci ildə Şəkidə ilk memorial muzeyin yaradılması ilə Azərbaycanda ev-muzeylərinin də əsası qoyuldu. Daha sonra ədəbiyyat, tarix, incəsənət, musiqi və teatr istiqamətində yeni muzeylər fəaliyyətə başladı. Hazırda ölkəmizdə onlarla muzey fəaliyyət göstərir və onların əksəriyyəti milli irsimizin qorunması istiqamətində mühüm rol oynayır. Milli Tarix Muzeyi, Milli Ədəbiyyat Muzeyi, Milli İncəsənət Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Dövlət Teatr Muzeyi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, İstiqlal Muzeyi və digər muzeylər Azərbaycanın maddi-mənəvi tarixidir. Hacı Zeynalabdin Tağıyevin möhtəşəm malikanəsində yerləşən Milli Azərbaycan Tarixi Muzeyini isə muzey içində muzey adlandırırlar.

Ölkəmizin müxtəlif bölgələrində fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyləri də xalqımızın zəngin keçmişinin yaşadılmasına xidmət göstərir. Bu muzeylərdə qədim məişət əşyaları, sənətkarlıq məhsulları və tarixi sənədlər qorunur. Ötən əsrin 60-80-ci illərində həmin muzeylərin inkişafı istiqamətində mühüm addımlar atılıb. 1980-ci illər isə tarix-diyarşünaslıq muzeylərinin infrastrukturunun inkişafında, həmçinin eksponatların toplanılmasında böyük işlər görülüb.

Azərbaycan həm də açıq səma altında muzey hesab olunan nadir abidələri ilə də seçilir. Şəki Xan Sarayı, Qobustan qayaüstü rəsmləri, Şirvanşahlar Sarayı Kompleksi, Möminəxatun türbəsi kimi tarixi məkanlar xalqımızın qədim mədəniyyətinin daş şahidləridir. Şuşa şəhəri, Lahıc qəsəbəsi və Qala kəndi isə bütövlükdə milli irsimizi əks etdirən nadir yaşayış məskənləri sayılır.

Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğal siyasəti nəticəsində çoxsaylı tarixi abidələrimiz və muzeylərimiz dağıdılmış, qarət olunmuşdur. 30 ilə yaxın işğal altında qalmış ərazilərimizdə yüzlərlə mədəniyyət müəssisəsi və tarixi abidə vandalizmə məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində yerləşən muzeylərimizdən minlərlə eksponat erməni vandalları tərəfindən talan və qarət edilmişdir.

Bu gün azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri gedir. O cümlədən dağıdılmış muzeylərin, tarixi abidələrin və digər mədəniyyət müəssisələrinin yenidən qurulması istiqamətində mühüm layihələr həyata keçirilir. Bu işlər xalqımızın mədəni irsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Qeyd etdiyimiz kimi, bu gün muzeylər yalnız keçmişi qoruyan məkan deyil, həm də xalqın yaddaşını yaşadan mənəvi xəzinədir. Muzeylərdə nümayiş olunan eksponatlar tariximizin, milli kimliyimizin real izləridir. Məhz buna görə də muzeylərə diqqət göstərmək, onları qorumaq və zənginləşdirmək milli irsimizə sahib çıxmaq deməkdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ötən həftənin iqtisadi icmalı

# Enerji, nəqliyyat və innovasiya gündəmi

## WUF13 isə ön planda

**Keçən həftə iqtisadi gündəm bir sıra mühüm hadisə və qərarlarla yadda qalıb. Beynəlxalq iqtisadi gündəm qlobal çağırışlar, yeni əməkdaşlıq platformaları və siyasi-iqtisadi müzakirələrlə diqqət çəkib. Dünya iqtisadiyyatında dəyişən güc balansları, enerji təhlükəsizliyi və davamlı inkişaf məsələləri əsas müzakirə mövzularından olub.**

Bu kontekstdə diqqət mərkəzində olan tədbirlərdən biri mayın 11-13-də İstanbulda keçirilən 29-cu Avrasiya İqtisadi Zirvə Görüşüdür. Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi tərəfindən təşkil olunan tədbirdə 48 ölkənin siyasətçiləri, diplomatları, akademikləri və iş adamları iştirak ediblər. "Qlobal məsuliyyət - müharibədən sonra dünya və ortaq gələcək axtarışı" mövzusuna həsr olunan zirvə çərçivəsində beynəlxalq sülh, enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və iqtisadi münasibətlərdə yeni yanaşmalar müzakirə olunub.

Tədbirdə çıxış edənlər qlobal gərginlik, münaqişə və beynəlxalq sistemin qarşılaşdığı problemlərdən danışaraq, sülh və iqtisadi əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. İki gün davam edən Zirvə görüşü çərçivəsində enerji, iqtisadiyyat, demokratiya və iqlim çağırışları ilə bağlı panel müzakirələri keçirilib.

❖ ❖ ❖

İqtisadi və aqrar sahədə beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində arxada qoyduğumuz həftə Azərbaycan şirkətləri fəal iştirak ediblər. Bu çərçivədə "PAŞA Holdinq"ə daxil olan "Agro Dairy" şirkəti beynəlxalq aqrar sərgi və forumlarda innovativ yeniliklərini təqdim edib.

19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi, 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi və Aqronomların II Beynəlxalq Forumu çərçivəsində şirkət "torpaqdan süfrəyədək" prinsipi əsasında qurduğu istehsal modelini nümayiş etdirib. Sərgidə toxum, süd və yem məhsulları, həmçinin müasir kənd təsərrüfatı texnikaları təqdim olunub. Stendlərdə müxtəlif toxum növləri, "Milla Dairy" məhsulları, yem və un məhsulları, soya istehsalı ilə yanaşı, müasir kənd təsərrüfatı texnikaları da sərgilənib. Açıq hava hissəsində nümayiş olunan simmental və holstein cinsli heyvandarlıq nümunələri isə iştirakçıların xüsusi marağına səbəb olub.

❖ ❖ ❖

Regional iqtisadi əməkdaşlıqla yanaşı, ötən həftə enerji sahəsində tərəfdaşlıq və "yaşıl keçid" istiqamətində müzakirələr də beynəlxalq gündəmdə önəmli yer tutub. Bu çərçivədə Azərbaycan Özbəkistan Enerji Həftəsində təmsil olunub. Energetika nazirinin müavini Orxan Zeynalov Daşkənddə "Yeni enerji: İnnovasiyalar, davamlılıq, regional əməkdaşlıq" mövzusunda keçirilən enerji forumunda iştirak edib. Forumda vahid enerji bazarı üzrə regional əməkdaşlıq, "yaşıl iqtisadiyyat"a keçid və müasir enerji bazarının formalaşdırılması məsələləri müzakirə olunub.

Tədbir çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi layihəsi ilə bağlı keçirilən görüşdə layihənin icra vəziyyəti və gələcək istiqamətləri nəzərdən keçirilib. Səfər zamanı Orxan Zeynalov Özbəkistan, Qazaxıstan və Türkmənistan rəsmiləri, həmçinin Beynəlxalq Enerji Xartiyasının nümayəndəsi ilə görüşərək enerji sahəsində əməkdaşlıq perspektivlərini müzakirə edib.

❖ ❖ ❖

Enerji sahəsində regional əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm təmaslar Daşkənddə keçirilən beynəlxalq tədbirlər çərçivəsində davam edib. Bu baxımdan, SOCAR "Özbəkistanın nefti və qazı (OGU-2026)" 28-ci beynəlxalq sərgi-konfransında fəal iştirak edib.

Konfrans zamanı SOCAR, BP və "Uzbekneftegaz" nümayəndələri arasında keçirilən üçtərəfli görüşlərdə "Üstyurt" layihəsi üzrə əməkdaşlıq məsələləri müzakirə olunub. Görüşlərin yekununda BP-nin layihəyə qoşulmasına dair sənədlər imzalanıb. Tədbir çərçivəsində SOCAR öz pavilyonu ilə təmsil olunub. Stenddə şirkətin beynəlxalq layihələri, "yaşıl enerji" təşəbbüsləri və rəqəmsal yeniliklər təqdim edilib. SOCAR-ın pavilyonu sərgidə "Ən Yaxşı Milli Stend Dizaynı" nominasiyası üzrə mükafata layiq görülüb.

❖ ❖ ❖

Ötən həftənin diqqətçəkən texnologiya və innovasiya xəbərlərindən biri də "Azərkosmos"un ilk "Milli Kosmik İnkubasiya" proqramına start verməsi olub. Qeyd edək ki, proqram kosmos sahəsində innovasiya və startap ekosisteminin inkişafına dəstək məqsədi daşıyır. Layihəyə "Milli Kosmik Hakaton"un iştirakçıları, "Vistar" Mükəmməllik Mərkəzinin məzunları və "Yerin məsafədən müşahidəsi üzrə müsabiqə"nin iştirakçıları qatılıblar. Altı ay davam edəcək proqram çərçivəsində 8 komanda kosmik sahədə rəqəmsal innovasiyalar üzrə texniki və kommersiya təlimlərinə cəlb olunacaq.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə "SABAH.HUB" İnnovasiya Mərkəzinin tərəfdaş olduğu proqram çərçivəsində iştirakçılar biznes modelinin qurulması, prototipləşdirmə və investor təqdimatları istiqamətində dəstək alacaqlar. "Azərkosmos" bildirib ki, layihə kosmik fəaliyyət sahəsində sahibkarlığın təşviqi və Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyasına töhfə vermək məqsədi daşıyır.

❖ ❖ ❖

Regional iqtisadi əməkdaşlığın genişləndirilməsi və yeni investisiya imkanlarının təşviqi istiqamətində fəaliyyətlər də ötən həftə diqqət mərkəzində olub. Bu çərçivədə Türkiyənin İğdır və Qars vilayətlərində Naxçıvan Muxtar Respublikasının investisiya və ixrac potensialı təqdim edilib.

Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində keçirilən görüşlərdə Naxçıvan ilə Türkiyə arasında iqtisadi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. İğdırda təşkil edilən tədbirdə Azərbaycanın və Naxçıvanın investisiya imkanları, sahibkarlara təqdim olunan vergi və gömrük güzəştləri barədə məlumat verilib.

Tədbirdə Zəngəzur dəhlizinin regionun gələcək iqtisadi inkişafına verəcəyi töhfələr də vurğulanıb. Qars şəhərində keçirilən görüşlərdə isə qarşılıqlı investisiya imkanları, ticarət əlaqələrinin genişləndirilməsi və birgə əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Ötən həftə nəqliyyat və logistika sahəsində regional əməkdaşlığın gücləndirilməsi istiqamətində atılan addımlar iqtisadi xəbərlər sırasında yer alıb. Bu, mayın 15-də Qazaxıstanın paytaxtı Astanada keçirilən TRACECA Hökumətlərarası Komissiyasının XVIII illik toplantısıdır.

Tədbir çərçivəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Ukrayna arasında TRACECA Vahid Tranzit İcazəsi Sazişi imzalanıb. Saziş tranzit daşımaları zamanı icazə prosedurlarının optimallaşdırılmasına və beynəlxalq logistika əlaqələrinin inkişafına xidmət edəcək.

❖ ❖ ❖

Mayın 17-də Bakı şəhərində təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) Bakı Olimpiya Stadionunda işə başlayıb. Daha 4 gün davam edəcək forum şəhərsalma və dayanıqlı urban inkişaf məsələlərinin müzakirəsi baxımından mühüm platforma kimi qiymətləndirilir. Dünyanın 180-dən çox ölkəsindən minlərlə iştirakçının qatıldığı tədbir çərçivəsində şəhərlərin gələcək inkişafı, ekoloji dayanıqlılıq, urban planlaşdırma və müasir şəhər idarəçiliyi ilə bağlı qlobal çağırışlar müzakirə ediləcək. Forumda müxtəlif ölkələrdən dövlət rəsmiləri, ekspertlər və beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.

"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu altında keçirilən WUF13 tədbiri minlərlə iştirakçını, o cümlədən dövlət və hökumət başçılarını, nazirləri, merləri, biznes nümayəndələrini, akademik dairələri və vətəndaş cəmiyyəti təmsilçilərini bir araya gətirib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

## "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

**№ 149**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**Bakı şəhəri, 15 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının 5.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 mart tarixli 62 nömrəli, 6 aprel tarixli 96 nömrəli və 29 aprel tarixli 123 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1.139-cu və 210-cu hissələr ləğv edilsin;

1.2.211-ci hissədə "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" sözləri "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 767 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə ləğv edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın

8.6-cı bəndində "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi" sözləri "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854, № 12 (II kitab), maddə 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 24 aprel tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 9-cu hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. beşinci və doqquzuncu abzaslar ləğv edilsin;

3.2. altıncı abzasda "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" sözləri "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" sözləri ilə əvəz edilsin.

4. "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" 2023-cü il 16 yanvar tarixli 11 nömrəli Qərarında dəyişiklik edilməsi, "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında" 2023-cü il 31 yanvar tarixli 28 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 79 (Cild I) ilə təsdiq edilmiş 3 nömrəli əlavə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin işçilərinin aylıq vəzifə maaşlarının cədvəli" ləğv edilsin.

5. Bu Qərarın 4-cü hissəsi "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 601 nömrəli Fərmanının 4.3.2-ci yarımbəndinə uyğun olaraq, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin işçilərinin aylıq vəzifə maaşlarının məbləği təsdiq edildikdən sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 10 mart tarixli 86 nömrəli, "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nın təsdiq edilməsi haqqında" 2017-ci il 10 mart tarixli 87 nömrəli, "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"ın təsdiq edilməsi haqqında" 2019-cu il 11 aprel tarixli 157 nömrəli, "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2019-cu il 22 may tarixli 237 nömrəli, "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 23 mart tarixli 106 nömrəli, "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi və ixtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləğinin müəyyən edilməsi haqqında "2024-cü il 20 may tarixli 267 nömrəli, "Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2024-cü il 24 may tarixli 277 nömrəli, "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara və taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" 2024-cü il 1 iyul tarixli 325 nömrəli və "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması qaydasının, qiymətləndirmənin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" 2024-cü il 9 iyul tarixli 335 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

**№ 150**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**Bakı şəhəri, 15 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 485 (Cild I); 2024, № 4, maddə 437; 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul, dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilən test imtahanları üçün test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bənddə (hər iki halda), 3.5-ci bəndin ikinci cümləsində ismin müvafiq hallarında "Mərkəzin rəsmi internet saytı" sözləri ismin müvafiq hallarında "Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 3.13-cü bənd əlavə edilsin:

"3.13. Namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticələr etibarsız hesab edilir. Mərkəz tərəfindən sertifikatın ləğv olunması barədə müvafiq qərar qəbul edilir və 3 (üç) iş günü ərzində nəticələrinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat namizədə elektron qaydada təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəliQərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I); 2024, № 4, maddə 437, № 5 (II kitab), maddə 589; 2025, № 2, maddələr 201, 206, № 12 (II kitab), maddə 1218) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci hissə və 6.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"5. Sertifikat elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri vasitəsilə təqdim edilir.";

"6.9. "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri və müvafiq QR kod.";

2.2. 7-ci, 8-ci və 10-cu hissələr ləğv edilsin;

2.3. 9-cu hissə üzrə:

2.3.1.9-cu hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"9. Sertifikata aşağıdakı hallarda Mərkəz tərəfindən dəyişiklik edilə bilər:";

2.3.2.9.2-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

2.3.3.9.3-cü bənd ləğv edilsin;

2.4. 11-ci hissəyə "sertifikatların" sözündən sonra "elektron" sözü əlavə edilsin;

2.5. həmin Formanın 2 nömrəli əlavəsində "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədrinin", "soyad, adı", "imza", "M.Y." sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kod yerləşdirilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 751 (Cild I); 2024, № 1, maddələr 80, 111; 2025, № 3, maddə 282, № 7, maddə 725) ilə təsdiq edilmiş "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

3.1. 12-2-ci hissədə "Mərkəzin rəsmi internet saytı (bundan sonra-sayt)" sözləri "Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti (bundan sonra - elektron kabinet)" sözləri ilə əvəz edilsin;

3.2. 12-3.5-ci bənddə "saytı" sözü "Mərkəzin rəsmi internet saytı (bundan sonra-sayt)" sözləri ilə əvəz edilsin;

3.3. 12-3.6-cı bənddə "sayta" sözü "onların elektron kabinetinə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I); 2024, № 2, maddə 241, № 3, maddə 341, № 5 (II kitab), maddə 611; 2025, № 1, maddə 83, № 2, maddə 206, № 6, maddə 599) ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1.2.3.8-ci yarımbəndə "vərəqəsini" sözündən sonra "onların Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetlərində" sözləri əlavə edilsin;

4.2. 2.10-cu bəndin ikinci cümləsində "fərdi identifikasiya nömrəsini (Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin FİN kodu, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələrinin FİN kodu, qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsinin FİN kodu) göstərməklə, Mərkəzin rəsmi internet saytında yaratdığı "Şəxsi kabinet"i" sözləri "fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin FİN kodu, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələrinin FİN kodu, qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsinin FİN kodu) göstərilməklə, Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti" sözləri ilə əvəz edilsin;

4.3.3.14-cü bənddə "vəzifəli şəxsi tərəfindən imzalanaraq möhürlə təsdiq edilir" sözləri "səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri vasitəsilə təqdim edilir." sözləri ilə əvəz edilsin;

4.4. aşağıdakı məzmunda 3.15-ci bənd əlavə edilsin:

"3.15. Bu Qaydaların 2.10-1-ci bəndi nəzərə alınmaqla namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticələr etibarsız hesab edilir. Mərkəz tərəfindən sertifikatın ləğv olunması barədə müvafiq qərar qəbul edilir və 3 (üç) iş günü ərzində nəticələrinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat namizədə və Maliyyə Nazirliyinə elektron qaydada təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.";

4.5. 4.2-ci bənd, 5-ci və 6-cı hissələr ləğv edilsin;

4.6. 4.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.5. Bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən formada peşəkar mühasib sertifikatı almış şəxslər barədə aylıq məlumatlar Mərkəzin informasiya sistemindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminə real vaxt rejimində ötürülür.";

4.7. aşağıdakı məzmunda4.7-ci bənd əlavə edilsin:

"4.7. Peşəkar mühasib sertifikatında aşağıdakı məlumatlar əks etdirilir:

4.7.1. peşəkar mühasib sertifikatının seriyası, nömrəsi və tarixi;

4.7.2. peşəkar mühasib sertifikatını verən qurumun adını, növünü, verildiyi şəxsin adını, atasının adını, soyadını, qüvvədə olma müddətini əks etdirən məlumat qrafaları.";

4.7.3. "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." qeydi və aşağı sağ küncündə müvafiq QR kod yerləşdirilsin;

4.8. həmin Qaydalara 1 nömrəli əlavə - "Peşəkar mühasib sertifikatı"nda "Peşəkar mühasib sertifikatını təsdiq edən məsul şəxs:", "(adı, soyadı)", "Vəzifəsi:", "İmza:", "M.Y." sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kod yerləşdirilsin;

4.9. həmin Qaydaların 2 nömrəli əlavəsindən "Rəhbər", "(imza)", "(adı, atasının adı, soyadı)", "İcraçı", "(imza)", "(adı, atasının adı, soyadı)", "____" ___ _______ il" və "(icraçının soyadı və telefonu)" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 367 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 2, maddə 206, № 5, maddə 495, № 9, maddə 848) ilə təsdiq edilmiş "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-ci bəndin ikinci cümləsinə "aşağıdakı sənədlərinin" sözlərindən sonra "Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri (bundan sonra - elektron kabinet) vasitəsilə" sözləri əlavə edilsin;

5.2. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. Namizədlərin ali və ya orta ixtisas təhsili haqqında məlumatlar Fond tərəfindən yoxlanılır.";

5.3. 4.2-ci bənddə "Mərkəzin rəsmi internet saytı" (hər iki halda) sözləri "elektron kabinet" sözləri ilə əvəz edilsin;

5.4. 5.5-ci bənddə "vəzifəli şəxsi tərəfindən imzalanaraq möhürlə təsdiq edilir" sözləri "səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin elektron kabinetləri vasitəsilə təqdim edilir" sözləri ilə əvəz edilsin;

5.5. aşağıdakı məzmunda 5.6-cı bənd əlavə edilsin:

"5.6. Bu Qaydanın 3.2-ci bəndi nəzərə alınmaqla namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticə etibarsız hesab edilir. Mərkəz tərəfindən sertifikatın ləğv olunması barədə müvafiq qərar qəbul edilir və 3 (üç) iş günü ərzində nəticəsinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat namizədə və Fonda elektron qaydada təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.";

5.6. həmin Qaydaya 2 nömrəli əlavə - "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı"nda "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatını təsdiq edən məsul şəxs", "(şəxsin soyadı, adı və atasının adı)", "Vəzifəsi", "İmza", "M.Y." sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kodyerləşdirilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 may tarixli 267 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 604; 2025, № 9, maddə 848) ilə təsdiq edilmiş "Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.2.3-cü yarımbəndə "vərəqəsini" sözündən sonra "onların Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetlərində" sözləri əlavə edilsin;

6.2. 3.4-cü bənddə "fərdi identifikasiya nömrəsini (Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin FİN kodu, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş daimi yaşamaq üçün icazə vəsiqələrinin FİN kodu, qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsinin FİN kodu) göstərməklə, saytda yaratdığı "Şəxsi kabinet"i" sözləri "fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin FİN kodu, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş daimi yaşamaq üçün icazə vəsiqələrinin FİN kodu, qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qaçqın vəsiqəsinin FİN kodu) göstərilməklə, Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti" sözləri ilə əvəz edilsin;

6.3. 4.2-ci bənddə "gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron formada Mərkəzin informasiya sistemi vasitəsilə" sözləri "təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri vasitəsilə" sözləri ilə əvəz edilsin;

6.4. aşağıdakı məzmunda 4.4-cü bənd əlavə edilsin:

"4.4. Bu Qaydaların 3.5-ci bəndi nəzərə alınmaqla namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticə etibarsız hesab edilir və Mərkəz tərəfindən şəhadətnamənin ləğv olunması barədə müvafiq qərar qəbul edilir, 3 (üç) iş günü ərzindən elektron qaydada namizədə nəticəsinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.";

6.5. həmin Qaydalara əlavə - "Qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması"nda "Bu sənəd səlahiyyətli şəxsin elektron imzası ilə imzalanmışdır." sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır. "sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 614; 2025, № 9, maddə 848) ilə təsdiq edilmiş "Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.2.2-ci yarımbəndə "vərəqəsini" sözündən sonra "onların Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetlərində" sözləri əlavə edilsin;

7.2. 4.2-ci bənddə "sayt" sözü "Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti" sözləri ilə əvəz edilsin;

7.3. 5.5-ci bənddə "vəzifəli şəxsi tərəfindən imzalanaraq möhürlə təsdiq edilir" sözləri "səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilərək elektron sənəd formasında Mərkəzin müvafiq informasiya sistemində formalaşdırılaraq namizədlərin Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetləri vasitəsilə təqdim edilir" sözləri ilə əvəz edilsin;

7.4. aşağıdakı məzmunda 5.6-cı bənd əlavə edilsin:

"5.6. Bu Qaydanın 2.3-cü bəndi nəzərə alınmaqla namizəd tərəfindən bilərəkdən və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlərin və ya məlumatların təqdim edilməsi müəyyən edildikdə, namizədin test imtahanında əldə etdiyi nəticəsi etibarsız hesab edilir və Mərkəz tərəfindən sertifikatın ləğv olunması barədə müvafiq qərar qəbul edilir, 3 (üç) iş günü ərzində nəticəsinin etibarsız hesab edilməsinin səbəbləri izah olunan məlumat namizədə və Mərkəzi Banka elektron qaydada təqdim olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.";

7.5. həmin Qaydaya əlavə -"Sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı"nda"Müstəqil ekspert sertifikatını təsdiq edən məsul şəxs", "(şəxsin soyadı, adı, atasının adı)", "Vəzifəsi", "İmza", "M.Y."sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kod yerləşdirilsin.

8. "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara və taksi minik avtomobillərinin sürücüləri üçün etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığın qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması və qiymətləndirilmənin aparılmasına görə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 iyul tarixli 325 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 886; 2025, № 2, maddə 206) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" üzrə:

8.1.1. cədvəldə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi", "(qurumun rəhbərinin soyadı və adı)", "(imza)", "M.Y." sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kod yerləşdirilsin;

8.1.2. "Qeydlər" hissəsinin 1-3-cü bəndləri ləğv edilsin;

8.1.3. "Qeydlər" hissəsinin 5-ci bəndində "Mərkəzin rəsmi internet saytında yaradılmış sürücünün şəxsi kabinetinə" sözləri "sürücünün Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində" sözləri ilə əvəz edilsin;

8.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Taksi minik avtomobillərinin sürücülərinin etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" üzrə:

8.2.1. cədvəldə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi", "(qurumun rəhbərinin soyadı və adı)" və"(imza) "sözləri "Bu sənəd səlahiyyətli şəxsin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə imzalanmışdır." sözləri ilə əvəz edilsin və aşağı sağ küncünə müvafiq QR kod yerləşdirilsin;

8.2.2. "Qeydlər" hissəsinin 1-3-cü bəndləri ləğv edilsin;

8.2.3. "Qeydlər" hissəsinin 5-ci bəndində "Mərkəzin rəsmi internet saytında yaradılmış sürücünün şəxsi kabinetinə" sözləri "sürücünün Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabinetində" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 335 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 896; 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 3.5-ci bənddə "Mərkəzin rəsmi internet saytı" sözləri "Elektron Hökumət İnformasiya Sistemindəki elektron kabineti (bundan sonra - elektron kabinet)" sözləri ilə əvəz edilsin;

9.2. 3.6.6-cı yarımbənddə "rəsmi internet saytına" sözləri "onların elektron kabinetinə" sözləri ilə əvəz edilsin;

9.3. 3.18.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.18.4-cü yarımbənd əlavə edilsin:

"3.18.4. onu almış şəxsin sürücülük vəsiqəsinin nömrəsi və kateqoriyası dəyişdikdə (sürücülərə münasibətdə).";

9.4. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" və "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair hazırlığının və yenidən hazırlığının qiymətləndirilməsinin nəticələrinə dair sənədin forması" üzrə "Qeydlər" hissəsinin 5-ci bəndində "Mərkəzin rəsmi internet saytında yaradılmış sürücünün şəxsi kabinetinə" sözləri "sürücünün elektron kabinetinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" (respublikanın Naftalan şəhəri və Daşkəsən, Oğuz, Samux, Yardımlı, Füzuli rayonları üzrə) adlı təkrar müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 02 iyun 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 03 iyun 2026-cı il saat 12:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi" (Respublikanın Naftalan şəhəri və Astara, Şəmkir rayonları üzrə) adlı təkrar müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 02 iyun 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 03 iyun 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## "Bank Respublika" ASC tərəfindən lombard krediti müştəriləri arasında keçirilən "Qızıl Seçim" lotereyasının ikinci tirajının qaliblərinin SİYAHISI

15 may 2026-cı tarixdə "Bank Respublika"nın Baş ofisində 5 nəfərdən ibarət müstəqil komissiya üzvünün iştirakı ilə təsadüfi seçim əsasında "Qızıl Seçim" lombard lotereyasının ikinci tirajının qalibləri müəyyən olundu.

"Qızıl Seçim" lotereyasının 2-ci tirajının 20 qalibinin siyahısını təqdim edirik:

| № | Lombard müqaviləsinin nömrəsi | Qazanılan hədiyyə | Soyadı, ad və ata adının baş hərfləri | Müştəri kodu |
|---|---|---|---|---|
| 1 | LM 9100326-224528601 | BYD Destroyer avtomobili | S**** G**** P**** | 2**5**6 |
| 2 | LM 21300426-136326001 | 20 qramlıq qızıl külçə | F**** T**** T**** | 1**3**0 |
| 3 | LM 8250226-161099101 | 20 qramlıq qızıl külçə | İ**** S**** X**** | 1**0**1 |
| 4 | LM 38160226-138685701 | 10 qramlıq qızıl külçə | B**** Z**** V**** | 1**6**7 |
| 5 | LM 11030326-222381901 | 10 qramlıq qızıl külçə | X**** N**** Ə**** | 2**3**9 |
| 6 | LM 9160426-221112901 | 10 qramlıq qızıl külçə | A**** İ**** R**** | 2**1**9 |
| 7 | LM 40141125-221679601 | 10 qramlıq qızıl külçə | S**** G**** İ**** | 2**6**6 |
| 8 | LM 9090426-131077401 | 10 qramlıq qızıl külçə | A**** A**** Ə**** | 1**0**4 |
| 9 | LM 16151225-218758201 | 5 qramlıq qızıl külçə | K**** G**** K**** | 2**7**2 |
| 10 | LM 25031025-146062601 | 5 qramlıq qızıl külçə | X**** İ**** T**** | 1**0**6 |
| 11 | LM 36130426-175619601 | 5 qramlıq qızıl külçə | M**** V**** Q**** | 1**6**6 |
| 12 | LM 5090426-154986002 | 5 qramlıq qızıl külçə | B**** J**** S**** | 1**9**0 |
| 13 | LM 32301025-156569102 | 5 qramlıq qızıl külçə | N**** X**** X**** | 1**5**1 |
| 14 | LM 39100226-223795702 | 5 qramlıq qızıl külçə | H**** T**** M**** | 2**7**7 |
| 15 | LM 32051225-222276701 | 5 qramlıq qızıl külçə | A**** A**** A**** | 2**2**7 |
| 16 | LM 49240426-210869402 | 5 qramlıq qızıl külçə | M**** A**** Ə**** | 2**8**4 |
| 17 | LM 9271025-215703101 | 5 qramlıq qızıl külçə | N**** B**** M**** | 2**7**1 |
| 18 | LM 21190226-224102501 | 5 qramlıq qızıl külçə | N**** G**** Ə**** | 2**1**5 |
| 19 | LM 45300426-225714202 | 5 qramlıq qızıl külçə | Ə**** N**** A**** | 2**7**2 |
| 20 | LM 31090126-100212601 | 5 qramlıq qızıl külçə | M**** Y**** R**** | 1**2**6 |

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Ahıllar üçün günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili" (Respublikanın Sumqayıt şəhəri üzrə) adlı təkrar müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 02 iyun 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 03 iyun 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

# Sürprizlər, etirazlar və boykotlarla yadda qalan "Eurovision - 2026"

**Avropanın musiqi yarışmasında bu dəfə Bolqarıstan Daranın rəqs hiti olan "Bangaranga" kompozisiyası ilə qalib gəldi. Bazar günü Vyanada başa çatan finalda müğənni digər 24 iştirakçını məğlub edərək gözəl ritmi və xoreoqrafiyası ilə yadda qaldı. Onun ifa etdiyi mahnı həm televiziya izləyiciləri, həm də milli münsiflər heyəti tərəfindən yüksək qiymətləndirildi.**



Bu, Bolqarıstanın Avroviziyadakı ilk qələbəsidir. Vətənində Dara (Darina Yotova) məşhur müğənni və "Bolqarıstanın səsi"ndə münsif kimi tanınsa da, o, Avstriyada qalib gəlmək üçün favorit hesab edilmirdi. Əvəzində israilli Noam Bettanın sona qədər qalib gəlmək şansı böyük idi. Amma Bettan qalibdən 173 xal geridə qalaraq ikinci oldu. Rumıniya təmsilçisi Aleksandra Kepitenesku isə ekspertlər tərəfindən birmənalı qarşılanmayan təxribatçı rok mahnısı "Choke Me" ilə üçüncü yeri tutdu.

"Eurovision" tarixçisi Din Vuletic budəfəki müsabiqənin də sürprizlərlə zəngin olduğunu bildirib. Deyib ki, ümumiyyətlə, "Eurovision" heç vaxt böyük ulduzlar üçün yarışma olmayıb, o, əsasən zəiflər üçün yarışmadır: "İnsanlar səhnədə indiyədək qiymətləndirilməmiş sənətçini görməyi sevirlər. Onlar gənc və ya daha kiçik, kasıb bir ölkədən olan bir sənətçinin səhnədə çıxış etməsini sevirlər".

Festival günlərində müsabiqə məkanının ətrafında və Avstriya paytaxtında təhlükəsizlik tədbirləri gücləndirilmişdir. Şoudan əvvəl İsrailin iştirakına və Qəzzadakı müharibəyə qarşı nümayişlər keçirilmişdir. 5 ölkə (İspaniya, İrlandiya, Niderland, İslandiya və Sloveniya) isə müsabiqəni boykot etmişdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Əliağa Hüseynova qardaşı

**NAMİZ HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Atəşgah" Sığorta Şirkəti ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanova anası

**XALİSƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Atəşgah Həyat" Sığorta Şirkəti ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanova anası

**XALİSƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AtaSığorta" ASC-nin kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanova anası

**XALİSƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3813
Sifariş 651

Qiyməti 60 qəpik